

Milli azadlıqdan şirin nemət yoxdur!

# Bir bayraq altında



Bax səh. 4

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
14 mart 2025-ci il, cümə
№ 047 (6875)
Qiymәti 60 qәpik

# Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır




Bax səh. 3

# Azərbaycandan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində böyük dəyişiklik yaradır

## Avrasiya Bankı Azərbaycana investisiya yatırmağa hazırdır

Avrasiya İnkişaf Bankı Azərbaycanda müxtəlif sahələr üzrə layihələrin maliyyələşdirməsinə hazır olduğunu bəyan edib. Bu barədə Avrasiya İnkişaf Bankının (AİB) İdarə Heyətinin sədri Nikolay Podquzov bildirib. Bankın nümayəndə heyəti ilə Azərbaycanın maliyyə naziri Sahil Babayev arasında keçirilən görüşdə N.Podquzov bankın yaradılması, fəaliyyəti, hazırkı üzvləri, eləcə də üzv ölkələrdə maliyyələşdirilən layihələr barədə ətraflı məlumat verib. O, bankla Azərbaycan arasında əməkdaşlıq üçün böyük imkanların olduğunu diqqətə çatdırıb.

S.Babayev Azərbaycanın beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu və Avrasiya İnkişaf Bankı ilə də əməkdaşlıq məsələsinin nəzərdən keçiriləcəyini qeyd edib. AİB-in fəaliyyəti, layihələri maliyyəşdirmə prosedurları və bu sahədə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

**AİB Azərbaycanın səhmdar olmasında maraqlıdır**

Avrasiya İnkişaf Bankı Azərbaycanın bu maliyyə institutunda yer almasında maraqlıdır. Bankın rəhbərliyi ölkəmizin bu qurumun səhmdarlarının sırasına qoşulmasına ümid etdiyini bəyan edib. Bir müddət əvvəl AİB-in idarə heyətinin sədri Nikolay Podquzov bildirib ki, bank öz sıralarına yeni iştirakçıların cəlb edilməsi yolu ilə səhmdarların sırasının genişlənməsinə çalışır. Onların sırasında Azərbaycana xüsusi etimad göstərilir. “Biz banka yeni iştirakçıların cəlb edilməsi üzrə fəaliyyətimizi gücləndirmək istəyirik. Avrasiya regionunda fəaliyyət göstərən bank olaraq görürük ki, ilk növbədə regiondakı qonşu ölkələr namizəd ola bilər. Aydındır ki, Türkmənistan, Monqolustan və ya Azərbaycan kimi ölkələr bankın həqiqi tərəfdaşları ola bilərdi...

Bax səh. 5

## Sülh sazişinin mətni üzrə danışıqlar yekunlaşıb

Bax səh. 5

## Nyu-Yorkda mühüm konfrans

Bax səh. 7

## Aİ ciddi imtahan qarşısındadır

Bax səh. 5

## Rəsmi İrəvan konstitusiya dəyişikliyini yubadır

Bax səh. 6

## Milli Məclis xarici ölkələrin parlamentlərinə məktub göndərib

Hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərlə bağlı Azərbaycanda keçirilən məhkəmə prosesi ilə əlaqədar Milli Məclis tərəfindən xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının rəhbərlərinə, parlamentlərin beynəlxalq komitələrinin sədrlərinə və beynəlxalq parlament təşkilatlarına məktub ünvanlanıb. Məktubda Azərbaycanın hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin məhkəmə prosesini pozmağa cəhd edən əsassız qarayaxma kampaniyası ilə üzləşdiyi qeyd olunaraq, həmin şəxslərin Ermənistanın 30 il davam etmiş hərbi təcavüzü çərçivəsində hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlər, etnik təmizləmə, hərbi təcavüz, soyqırımı aktları, işgəncələr və digər ağır cinayətlər törətməkdə ittiham olunduqları diqqətə çatdırılır. Bu məsələ ilə bağlı irəli sürülən yalan iddiaların məhkəmənin legitimliyini şübhə altına almaq məqsədi daşıdığı vurğulanaraq, qeyd edilir ki, hərbi cinayətkarları “hərbi əsir” adlandırmaq və onların azad olunmasını tələb etmək, vəziyyətin mahiyyətini bilməməkdən və ya onu qəsdən görməzdən gəlməkdən irəli gəlir.

Daha sonra mühakimə olunanların Azərbaycan dövlətinə və xalqına qarşı törətdiyi cinayətlər faktlarla diqqətə çatdırılır. Bu şəxslərin Azərbaycan ərazilərinə qarşı həyata keçirilmiş hərbi təcavüzü planlaşdıran və icra edən, eyni zamanda hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər törədənlər arasında olduqları vurğulanır. Lakin bugünədək bu müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə görə Ermənistanda bir nəfərin belə məsuliyyətə cəlb olunmadığı, əksinə, Ermənistanın bu cinayətkarları qəhrəman kimi tərənnüm etməkdə davam etdiyi ifadə edilir. Qeyd olunur ki, aparılan istintaq zamanı Ermənistanın və onun hərbi-siyasi rəhbərliyinin hərbi təcavüz və işğala görə...

Bax səh. 5

## Ertəsi gün evimizi yoxlamaq üçün komissiya gəldi...

Bax səh. 7

## Ramazan ayı və Novruz bayramı ərəfəsində



Bax səh. 8

# Ölkəmizin Dayanıqlı İnkişaf Məqsədləri sahəsindəki nailiyyətləri yüksək qiymətləndirilir

## Prezident İlham Əliyev BMT-nin Ticarət və İnkişaf Konfransının baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) baş katibi Rebeka Qrinspanı qəbul edib. Rebeka Qrinspan COP29-un ölkəmizdə yüksək səviyyədə keçirilməsi və həmin tədbirdə çox mühüm nəticələrin əldə edilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunularaq, beynəlxalq səviyyəli mühüm məsələlərin müzakirəsi üçün bu tədbirin böyük rol oynadığı vurğulanıb.

Görüşdə ölkəmizlə BMT strukturları arasında uğurlu əməkdaşlığın həyata keçirilməsindən məmnunluq ifadə olunub. Azərbaycanın BMT institutlarının fəaliyyətinə verdiyi könüllü maliyyə töhfələri qeyd edilib. Ölkəmizin 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyi bildirilib, Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri sahəsindəki nailiyyətləri yüksək qiymətləndirilib.

# Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın dəstəyindən razıdır

## Prezident İlham Əliyev Tedros Adhanom Qebreyesusla görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib. Tedros Adhanom Qebreyesus COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq bu konfrans çərçivəsində əldə olunmuş nəticələri yüksək qiymətləndirdiklərini diqqətə çatdırıb.

Prezident İlham Əliyev COP29-a hazırlıqla bağlı vaxtın az olmasına baxmayaraq Azərbaycan tərəfindən bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri işlərin görüldüyünü qeyd edib. Tedros Adhanom Qebreyesus Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına verdiyi dəstəyə və könüllü maliyyə töhfələrinə görə təşəkkürünü bildirərək, rəhbərlik etdiyi qurumun Azərbaycanla birlikdə müxtəlif ölkələrdə həyata keçirilmiş layihələrin önəminə toxunub.

Görüşdə Azərbaycanla Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlıq məsələlərinə, həmçinin BMT strukturlarının gələcək fəaliyyətinə dair fikir mübadiləsi aparılıb. Söhbət zamanı XII Qlobal Bakı Forumunun və onun gündəliyində duran məsələlərin əhəmiyyəti vurğulanıb.

# Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır

## Fatih Birol "Dostluq" ordeni ilə təltif olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolu qəbul edib. Dövlətimizin başçısı əvvəlcə Fatih Birola "Dostluq" ordenini təqdim edib. Fatih Birol bu ordenə COP29-da Azərbaycanın sədrliyinə və qlobal iqlim dəyişmələri üzrə irəli sürdüyü təşəbbüslərin təşviqinə verdiyi dəstəyə və səmərəli əməkdaşlığa görə layiq görülüb.

Prezident İlham Əliyev Fatih Birola ölkəmizlə həyata keçirdiyi əməkdaşlığa və COP29-da göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib. Fatih Birol da öz növbəsində "Dostluq" ordeni ilə təltif olunmasından böyük qürur hissi duyduğunu diqqətə çatdırıb. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını və etibarlı tərəfdaş olduğunu vurğulayıb. COP29-da əldə olunmuş nəticələr münasibətilə təbriklərini çatdıran Fatih Birol bu tədbirdə çox çətin və mürəkkəb danışıqlar prosesinin aparıldığınıvə iqlim gündəliyi ilə əlaqədar yaxşı nəticələrin əldə edildiyini xatırladıb.

Fatih Birol XII Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirərək, bu tədbiri beynəlxalq səviyyədə mühüm məsələlərinin müzakirəsi baxımından vacib platforma kimi qiymətləndirərək gələcəkdə də Forumla əməkdaşlıq imkanları ilə bağlı fikirlərini bölüşüb. Söhbət zamanı qlobal enerji məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Bolqarıstan bərpaolunan enerji sahəsində əməkdaşlığı artıracaq

## Dövlətimizin başçısı bu ölkənin xarici işlər nazirini qəbul edib



Prezident İlham Əliyev martın 13-də Bolqarıstanın xarici işlər naziri Georq Georqievi qəbul edib. Qonaq XII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunaraq, bu tədbirdə vacib məsələlərin müzakirə olunduğunu vurğulayıb.

Georq Georqiev Azərbaycanla Bolqarıstan arasında dostluq münasibətlərinin olduğunu deyərək, əməkdaşlığımızın bu prinsiplər əsasında hərtərəfli inkişaf etdiyini bildirib. Bu xüsusda, o, ölkələrimiz arasında iqtisadi-ticari, enerji, o cümlədən bərpaolunan enerji, nəqliyyat, mədəniyyət, turizm, insanlararası əlaqələr və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğunu dedi. Bolqarıstanın xarici işlər naziri Bakı ilə Sofiya arasında birbaşa uçuşların həyata keçirilməsinin vacibliyinə toxunub.

Prezident İlham Əliyev Bolqarıstana rəsmi səfərini və səfər çərçivəsində keçirdiyi görüşləri məmnunluqla xatırladıb. Dövlətimizin başçısı əlaqələrimizin inkişafını qeyd edərək, enerji sahəsində əməkdaşlığa toxundu. Prezident İlham Əliyev Azərbaycan qazının bu gün Bolqarıstan bazarına çatdırılmasının əhəmiyyətini və bunun Bolqarıstanın enerji təminatında rolunu vurğulayıb.

Azərbaycanla Bolqarıstanın bərpaolunan enerji sahəsində əməkdaşlığı məsələsi qeyd edilib. Dövlətimizin başçısı, bu xüsusda, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında bərpaolunan enerji layihəsinə Bolqarıstanın da bir tərəfdaş kimi qoşulması münasibətilə təbriklərini çatdırıb. Bu istiqamətdə də ölkələrimiz arasında əməkdaşlıqdan məmnunluq ifadə olunub.

# Ölkəmiz Albaniyanın qazlaşdırılması layihəsində iştirak edir

## Prezident İlham Əliyevin Albaniya Prezidenti ilə görüşü olub



Azərbaycan Prezidenti İlham Əliyev martın 13-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşüb. COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdıran Bayram Beqay bu tədbir çərçivəsində aparılan danışıqlar prosesində ciddi nailiyyətlər əldə edildiyini və iqlim gündəliyi ilə əlaqədar vacib qərarların qəbul olunduğunu vurğulayıb. Qonaq Azərbaycan ilə Albaniya arasında siyasi əlaqələrlə yanaşı, iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə də əməkdaşlığın uğurla davam etdirildiyini dedi və bu xüsusda TAP layihəsinin əhəmiyyətinə toxundu, Azərbaycanın Albaniyanın qazlaşdırılması istiqamətində həyata keçirdiyi layihədən məmnunluğunu ifadə edib.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib, COP29-a hazırlıq üçün ölkəmizin qısa vaxtı olmasına baxmayaraq, bütün təşkilati işlərin yüksək səviyyədə həyata keçirildiyini vurğulayıb. Prezident İlham Əliyev də öz növbəsində COP29-da iqlim gündəliyi ilə əlaqədar olduqca mühüm qərarların qəbul edildiyini məmnunluqla xatırladıb.

İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı Azərbaycan ilə Albaniya arasında dostluq əlaqələrinin mövcud olduğunu vurğulayaraq enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini və Albaniyanın qazlaşdırılması layihəsində iştirakına toxunub.

Söhbət zamanı əməkdaşlığın perspektivləri və ikitərəfli gündəliyə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görüşdə XII Qlobal Bakı Forumunun beynəlxalq gündəlikdə duran məsələlərinin müzakirəsi baxımından əhəmiyyətinə toxunulub. Bayram Beqay bu tədbirdə mütəmadi olaraq iştirak etməsini məmnunluqla vurğulayıb.

# Azərbaycan Prezidenti Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç ilə görüşüb. Dövlətimizin başçısı Bosniya və Herseqovinaya rəsmi səfərini və səfər çərçivəsində Jelka Tsviyanoviç ilə keçirdiyi görüşü, aparılmış müzakirələri məmnunluqla xatırladıb.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XII Qlobal Bakı Forumuna dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri bu forumun yüksək səviyyədə təşkil olunduğunu, tədbir çərçivəsində qlobal gündəliyə aid mühüm məsələlərin müzakirə edildiyini vurğulayıb. Jelka Tsviyanoviç COP29 zamanı Azərbaycana səfərini və Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırladaraq COP29 çərçivəsində əldə edilən nailiyyətləri yüksək qiymətləndirib.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari, enerji, mədəniyyət və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev: Qlobal Bakı Forumu qlobal gündəlikdəki mühüm məsələlərin həllində aparıcı beynəlxalq platformalardan birinə çevrilib







## Bakıda “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu keçirilir

Martın 13-də Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib. Əvvəlcə xatirə fotosu çəkdirilib.

Dövlətimizin başçısı açılış mərasimində çıxış edərək bildirib ki, bütün qonaqlarımızı illik Qlobal Bakı Forumunda salamlayıram. Əvvəlcə, mən bizimlə olduğunuza görə sizə təşəkkürümü bildirirəm. Mən, eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, bu illər ərzində çox əla işlər görmüşdür və belə bir mühüm beynəlxalq tədbiri təşkil edir.

Biz çox fərəhlənirik ki, Qlobal Bakı Forumu qlobal gündəlikdəki mühüm məsələlərin həllində aparıcı beynəlxalq platformalardan birinə çevrilib. Mən dünən İdarə Heyətinin üzvləri ilə görüşdüm.

Bu gün söyləmək istərdim ki, biz Mərkəzin bütün üzvlərinə, onun İdarə Heyətinə, həmsədrləri - xanım Vayra Vike Freyberqaya, cənab İsmayıl Serageldinə Mərkəzin həqiqətən böyük transformasiyasına verdikləri töhfəyə və dünya miqyaslı fəaliyyətinə görə minnətdarıq. Mən, həmçinin söyləmək istəyirəm ki, biz Beynəlxalq Mərkəzin üzvlərinin Azərbaycanda ötən ilin noyabrında keçirilmiş COP29 tədbirində fəal iştirakını görməkdən çox məmnun olduq. Mərkəzin bəzi üzvləri Məşvərət Komitəsində iştirak edirdilər. Mərkəz 16 panel müzakirəsi keçirdi. Əslində, onlara ev sahibliyi etdi, onları təşkil etdi və öz pavilyonu ilə daha çox panel müzakirələrdə iştirak etdi. Bir sözlə, həqiqətən, bu, COP29-un uğuruna böyük töhfə idi. Bu, ötən il Azərbaycanda əsas beynəlxalq tədbir idi.

**COP29-u təşkil etmək qərarı Azərbaycanın öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşmasından irəli gəlir**

Biz həqiqətən çox fərəhlənirik ki, təxminən 200 ölkənin yekdil qərarı ilə seçildik. Bu, bizə olan hörmətin, etimadın təzahürü, eləcə də yaşıl keçid üzrə fəaliyyətimizə verilən qiymət idi. Baxmayaraq ki, biz faydalı qazıntılarla zənginik, gündəliyimizdə bərpaolunan enerjiyə diqqət yetirilir. Bu gün artıq qərara alınıb ki, gələn illərdə Azərbaycanın bərpaolunan enerji imkanları faydalı qazıntıdan olan enerji istehsalına demək olar ki, bərabər olacaq. Bu gün Azərbaycanda yaradılmış enerji istehsalı imkanları 8 giqavatdır. 2030-cu ilə qədər bizim bərpaolunan enerjidən, əsasən günəş və küləkdən, o cümlədən Azərbaycanın azad edilmiş ərazilərdəki hidroresurslardan əlavə 6.5 giqavatlıq enerji güclərimiz olacaq. Beləliklə, biz bu günə olan potensialımızı demək olar ki, iki dəfə artıracağıq.

Bunun sayəsində biz nəinki neft və qazı, o cümlədən yaşıl enerjini də ixrac edə biləcəyik. Bu rəqəmlər tamamilə realdır. Onlar artıq imzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsaslanır.

Biz artıq həmin layihələrin icrasını görürük. Beləliklə, düşünürəm ki, Azərbaycanda COP29-u təşkil etmək qərarı Azərbaycanın öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşmasından irəli gəlir. Bir daha qeyd etmək istəyirəm ki, ölkə enerji təchizatı baxımından qıtlıqla üzləşmir. Əksinə, bu gün Azərbaycan ondan artıq ölkənin enerji təhlükəsizliyinə töhfə verir. Onların 12-si Azərbaycandan təbii qaz alır. Bu 12 ölkədən 10-u Avropa ölkəsidir.

**Biz bölgədə sülhün bərqərar olunması üçün hələ də çalışırıq**

Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, bu gün Azərbaycandan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və əslində, onun möhkəmləndirilməsində həqiqətən böyük dəyişiklik yaradır. Buna yaşıl enerji mənbələrimizi, o cümlədən Azərbaycandan Avropaya gedən, qismən Qara dənizin dibi ilə çəkilən yeni enerji kabelini əlavə etsək, bu, məsuliyyətimizin digər təzahürü və bir çox ölkələrlə sıx tərəfdaşlıq münasibətlərimizin nümayişidir. Təkcə enerji sərvətlərinin olması kifayət deyil. Siz gərək qonşularınızla, onların qonşuları ilə yaxşı münasibətdə olasınız ki, enerji, təhlükəsizlik və bağlantı layihələrini icra edə biləsiniz.

Bağlantı məsələlərinə gəldikdə, mən demək istəyirəm ki, son geosiyasi dəyişikliklərdən irəli gələrək Azərbaycandan keçən yüklərin daşınması həcmi kəskin şəkildə artmışdır. Biz bunun üçün yaxşı hazırıq, çünki biz üzərimizə düşən işi artıq icra etmişik. İndi isə biz, sadəcə, dəniz limanı, dəmiryolu infrastrukturun buraxılış qabiliyyətini artırmalıyıq ki, son illər ərzində Azərbaycana istiqamətləndirilmiş bütün yükləri qəbul edə bilək. Beləliklə, əlbəttə ki, bölgəmizin - Cənubi Qafqaz bölgəsinin geosiyasi əhəmiyyəti artır və həmin bölgədə biz sülhün bərqərar olunması üçün hələ də çalışırıq.

**COVID dövründə 80-dən artıq ölkəyə kömək etdik**

COP-la bağlı əlavə daha nəyi deyə bilərəm? Birincisi, çox çətin idi, çünki biz tədbiri bir ildən az olan müddətdə təşkil etməli idik. Adətən, ölkələrə hazırlaşmağa iki il vaxt verilir. Bu, yekdil rəy əsasında uğurla həyata keçirildi.

İkincisi, biz nəticələrə nail olmalı idik. Burada, bizə şaxələndirilmiş xarici siyasətimiz kömək etdi. Dörd il ərzində 120 ölkəni birləşdirən təşkilatda - Qoşulmama Hərəkatında sədrlik etdik və fərqli durumda olan üzv dövlətlərə, o cümlədən COVID vaxtlarında 80-dən artıq ölkəyə humanitar və maliyyə yardımı göstərməklə onlara fəal dəstək verdik. Eyni zamanda, biz Avropa tərəfdaşları ilə fəal əlaqədə olaraq Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü salan tərəf kimi öz rolumuzu gördük. Düşünürəm ki, biz uğur qazandıq, çünki COP29 zamanı bir sıra mühüm məsələlər üzərində razılığa gəlmək asan deyildi.

Əsas mərhələlərdən, nailiyyətlərdən biri 10 ildən artıq keçilməz nöqtə olan Paris Sazişinin 6-cı maddəsi üzərində konsensus idi. On ildən artıq idi ki, tərəflər razılığa gələ bilmirdi. Lakin biz burada konsensus əldə edə bildik və karbon bazarını işlək etdik. Bir sözlə, bu, prosesin gələcəkdə inkişafı üçün çox əhəmiyyətlidir. Digər mühüm nailiyyət ondan ibarət idi ki, Bakıda COP29-da biz bərpaolunan enerji layihələri üçün maliyyələşmənin əvvəlki 100 milyardan 300 milyard dollara qədər artırılmasına nail olduq. Bəli, bilirik ki, bəzi ölkələr bundan tam razı qalmadı. Onlar daha böyük artım istəyirdilər. Lakin, düşünürəm ki, bizdə maliyyələşmənin üç dəfə artırılması lazımınca qiymətləndirilməlidir. Buna görə, Bakıdakı COP29 Bakı sıçrayışı adlandırıldı və bu, mühüm irsdir.

**Onlar ABŞ Dövlət Departamentinin təlimatlarını icra edirdilər**

Deməliyəm, əfsuslar olsun ki, bu qlobal beynəlxalq tədbir bəzi Qərb medialarında kampaniya ilə müşayiət olundu. Prezident Tramp onları yalan, saxta xəbər adlandırır və onunla tam razıyam. Bu, Azərbaycanı gözdən salmaq, bizi qaralamaq, şayiələr və müxtəlif dezinformasiya yaymaq kampaniyası idi. Bizi ittiham edirdilər ki, neft və qaz hasil edən ölkəyik. Lakin bizdən əvvəl bir sıra ölkələr, o cümlədən Avropada nefti və qazı olan ölkələr var idi. Azərbaycanın neft hasilatı, məsələn, Kanadanın hasilatından on dəfə azdır. Bizim qlobal qaz emissiyalarında payımız cəmi 0,1 faizdir. Biz isə qlobal qaz emissiyalarına ən böyük töhfə verənləri bilirik. Amma bununla belə, dövri əsaslarla bəzən gün ərzində ondan artıq məqalə Azərbaycanın bir neft dövləti kimi təsvir edilməsinə yönəlirdi. Yəni deyirdilər, bir ölkə kimi biz qlobal, beynəlxalq tədbirin keçirilməsinə layiq deyilik. Bütün bunlar bir neçə mərkəzdən, əslində ikisindən qaynaqlanırdı. Onlardan biri - ABŞ-nin Dövlət Departamenti idi. “Vaşinqton Post”, “Nyu York Tayms”, “Politco”, “Newsveek” və “Assoşieyted Press” kimi yalan xəbər mənbələri, sadəcə, ABŞ Dövlət Departamentinin təlimatlarını icra edirdilər.

**Fransa prezidenti COP29-a qarşı kampaniya aparırdı**

İkinci mənbə isə Fransa prezidentinin ofisi, cənab Makron, onların “Le Monde”, “Fiqaro” və digər bu kimi saxta xəbər mətbuatı idi. Bir sözlə, bu, COP29-un boykot edilməsinə yönəlmiş qarayaxma və böhtanın əlaqələndirilmiş kampaniyası idi.

Bunun da müxtəlif səbəbləri ola bilər. Lakin onlardan biri ondan ibarətdir ki, onlar bizə öz iradəsini yeridə bilmədilər. Onlar suverenliyimizin, ərazi bütövlüyümüzün tam bərpasına yönəlmiş siyasətimizi dəyişə bilmədilər. Onlar o faktla razılaşa bilmirdilər ki, burada, Qafqazda öz milli maraqlarını güdən ölkə, yəni böyük bosslar qarşısında hər zaman “bəli, cənab” deməyən ölkə var. Əfsuslar olsun ki, Fransa hökuməti hətta COP29-u boykot etmək üçün bir çox ölkələri təhrik edərək, daha uzağa getdi. COP29-da iştirak etmiş dünya liderlərindən etibarlı informasiyamız var və onlar bizə bu haqda məlumat verdilər. Hətta gəlməyən rəhbərlər mesaj göndərdilər ki, şəxsən Fransa prezidenti COP29-a qarşı kampaniya aparırdı.

Bu, elə bir siyasətdir ki, heç bir kəsə başucalığı gətirmir. Buna baxmayaraq, böyük tərkibdə iştirak oldu. Qeydiyyata alınmış 77 min iştirakçı oldu. Onların sırasında 197 ölkədən təmsilçilər, 70 dövlət və hökumət başçısı var idi. COP29-u boykot edən yeganə ölkə Ermənistan idi.




**Azərbaycan razılaşdırılmış sülh sazişi layihəsinin müəllifidir**

Ermənistan-Azərbaycan prosesinə gəldikdə, biz işğal illərini, o cümlədən Ermənistanın işğalı və təcavüzü nəticəsində Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri yaddan çıxara bilmərik və çıxarmayacağıq. Azad olunmuş ərazilərə səfər edənlər barbarlıq səviyyəsini görə bilər. Bütün şəhərlərimiz xarablığa çevrilib. İndi isə biz onları yenidən tikirik. Hər bir şey yerlə-yeksan olunubdur və bu, kəndlərimizə, şəhərlərimizə qarşı bilərəkdən urbisid idi, dinimizə və tarixi irsimizə qarşı bilərəkdən zərbə idi. 65 məscid dağıdılıb və nəinki azərbaycanlıların, o cümlədən bütün dünya müsəlmanlarının hisslərini təhqir etmək üçün orada donuz və mal saxlayıblar. Biz bunu yaddan çıxarmayacağıq.

Biz 613 insanın, onlardan 60-dan çox uşağın və 100-dən artıq qadının ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımını yaddan çıxarmayacağıq. Lakin, eyni zamanda, biz gələcəyə nəzər salmalıyıq. Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq. Bu baxımdan, Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıbdır.

**Əgər torpağımızı güclə azad etməsəydik, BMT qətnamələri növbəti 27 il də kağız üzərində qalardı**

Mübarizəmiz ədalət, beynəlxalq hüquq və ləyaqətimiz üçün mübarizə idi. BMT-nin Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan qətnamələrini icra etdik. Əgər torpağımızı güclə azad etməsəydik, onlar növbəti 27 il də kağız üzərində qalardı. Burada biz mühüm meyara gəlib çıxırıq ki, bəzən sülhə nail olmaq və ədaləti bərpa etmək üçün siz gücdən istifadə etməlisiniz. Bu gün biz bunu görürük. Görürük ki, Avropa, Avropa İttifaqı güclü hərbi potensial qurmaq üçün bu gün öz siyasətini necə dəyişməyə çalışır. Görürük ki, digər ölkələr öz resurslarını hərbi potensialına və infrastrukturunun qurulmasına yönəldir. Biz bunu ən azı 20 ilə etdik, 2005-ci ildən etibarən etdik və ərazimizi azad edən, separatçılığa, separatçılara son qoyan güclü ordu yaratdıq. Bir sözlə, bu gün ərazi bütövlüyü və suverenliyin tam bərpası nəinki Azərbaycan xalqının güclü iradəsinin təzahürüdür, o cümlədən beynəlxalq ədaləti nümayiş etdirir. Eyni zamanda, əlbəttə, artıq qeyd etdiyim kimi, bizim yaddaşımız yaxşıdır. Hamımız xatırlayırıq ki, İkinci Qarabağ müharibəsindən əvvəl Ermənistanın cari hökuməti özünü necə aparırdı. Hamımız “Qarabağ Ermənistandır” söyləyən Ermənistan rəhbərinin bəyanatlarını xatırlayırıq. Bu, Xankəndidə deyilmişdir. Hamımız işğal olunmuş Şuşa şəhərində onun davranışını xatırlayırıq. Bunu internetdə tapa bilərsiniz. Çox maraqlı videodur.

**Bəzi Avropa bürokratları Ermənistanı sülh göyərçini kimi təqdim etməyə çalışırlar**

Bu gün bəzi Avropa bürokratları Ermənistanı sülh göyərçini kimi təqdim etməyə çalışırlar. Lakin onlar həmin hökumətin keçmişdə nəyi etdiyini yaddan çıxarırlar. Onlar yaddan çıxarırlar ki, İkinci Qarabağ müharibəsində Ermənilər bizim şəhərlərimizi, kəndlərimizi atəşə tuturdu. Yüzdən artıq vətəndaşımızı həmin raketlərə, ixracı qadağan olunmuş “İsgəndər M” raketinə görə itirdik. Biz hələ də suala cavab almamışıq: Ermənistan ordusu “İsgəndər M” raketini necə əldə edib? Çünki Rusiyada bu raketin ixracı yasaqdır. İnanmayanlar isə,- buradan cəmi 5-10 dəqiqəlik yoldur,- getsinlər Hərbi Qənimətlər Parkına və Şuşada tapdığımız “İsgəndər M” raketini görsünlər. Biz onu artıq 2021-ci ilin yazında tapdıq, çünki o, qarın altında qalmışdı. Biz Şuşanı azad etdiyimiz zaman o, şəhərə atılmışdı.

Bu, Ermənistanın baş nazirinin əmri ilə edilmişdi. Gəncə, Tərtər, Bərdə, Mingəçevir, Ağcabədi və bir çox digər şəhərlər dövri olaraq Ermənistanın atəşinə tutulurdu. Biz isə bunu etmədik. Biz Ermənistan ordusuna, işğalçı Ermənistanın ordusuna qarşı mübarizə aparırdıq. Onlar isə mülki şəxslərlə mübarizə aparırdı. Fərq bundadır. Bu, Birinci Qarabağ müharibəsində də eyni idi. Onlar bir növ bufer zonası yaratmışdılar. Belə adlandırırdılar. Əslində isə bu, işğal olunmuş ərazilər idi. Onlar yüz minlərlə azərbaycanlını qovdular və etnik təmizləmə apardılar. Biz bunu heç vaxt yaddan çıxarmayacağıq. Sizə bir məsələni də deyə bilərəm ki, Ermənistana etimad səviyyəsi sıfıra bərabərdir. Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq.

**Dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır**

Çünki onlar elə insan deyillər ki, biz inana bilək, o cümlədən onların indiki hökuməti. Bir daha bütün bunlar göstərir ki, onların dediyi bizim üçün sıfır məna kəsb edir. Bizə sənədlər, yazılı kağızlar lazımdır. Bizə lazımdır ki, onların Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları olmasın. Orada Azərbaycana qarşı ərazi iddiaları hələ də qalır. Bizə lazımdır ki, ATƏT-in Minsk qrupu buraxılsın. Biz bu mesajı Ermənistana çatdırırıq və deyirik ki, Minsk qrupunun saxlanılmasında məntiq yoxdur. O, Qarabağ məsələsinin həlli üçün yaradılmışdı. İndi Qarabağ məsələsi həll olunub. Ermənistan Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. ATƏT-in həmin qrupunun buraxılması üçün ümumi müraciətdə siz bizə niyə qoşulmursunuz? Onlar istəmirlər. Belə çıxır ki, onlar bir ayağını ərazimizdə yer saxlamaq üçün edir. Əlbəttə ki, virtual olaraq. Onların silahlanması - bu, nəyi göstərir?

Bu, göstərir ki, onlar yeni müharibəyə hazırlaşırlar. Kim onları yenidən müharibəyə sürükləyir? Fransa və onun Prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək “Sezar” haubitsaları Ermənistana göndərilir. Əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər. Bizim də həmin dırnaqarası monitorinq missiyası barədə kifayət qədər kəşfiyyat məlumatımız var. Avropanın Sülh Fondu milyonlarla dolları Ermənistanı silahlandırmaq üçün ona verir. Bəli, onlar deyir ki, bu pul qeyri-məhvedici hərbi qurğular üçündür.

**İndi Ermənistanın böyük qardaşı Brüsseldir**

Birincisi, bunu kim yoxlaya bilər? İkincisi, siz onlara 10 milyon verirsiniz və sonra isə digər 10 milyon planlaşdırılır. Beləliklə, Ermənistana silah almaq üçün pula qənaət imkanı yaranır. Nəinki Fransa onlara məhvedici silahlar göndərir. Onda, onlar bunu niyə edir? Onlar nəyə hazırlaşır? Əgər sülh istəyirlərsə, buna ehtiyac yoxdur. Dəfələrlə biz bu məsələni erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırmışıq. Çünki onlar indi böyük qardaşını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi. Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil. Necə deyərlər, bir qaranquşla bahar olmur. Xeyli digərləri var ki, erməni pulunu ciblərinə qoyurlar. Mən onların adını çəkə bilərəm, adları məlumdur: cənab Adam Şif, cənab Frenk Pallone və bir çox digərləri var. Onlar onilliklər ərzində Azərbaycana hücum çəkmək və onu gözdən salmaq üçün Birləşmiş Ştatlarda erməni diaspor təşkilatlarından pullar alıblar. Beləliklə, biz Prezident Trampa bataqlığın qurudulmasında uğurlar arzu edirik. Bu, asan deyil. Lakin edilməlidir. Həmçinin, biz USAID-in Azərbaycanda qeyri-qanuni fəaliyyəti ilə bağlı Amerikanın orqanları ilə məlumat mübadiləsinə hazırıq. Onlar insanlara necə rüşvət verirdilər?! Onlar qeyri-qanuni maliyyə kanallarından necə istifadə edirdilər?! Onlar Azərbaycanın qanunlarını və normalarını necə pozurdular?! İndi məsuliyyətli olmaq vaxtı yetişib. Biz əlimizdə olan bütün informasiyanı təqdim etməyə hazırıq.

**Antoni Blinkenin siyasəti 30 il qurduğumuz ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi**

Birmənalı olaraq Forumda yeni geosiyasi vəziyyət müzakirə olunacaqdır. Siz, yəqin, mənim şərhlərimdən təsəvvür edirsiniz ki, biz hazırda Amerikada nə baş verirsə, ona çox böyük maraq göstəririk. Nəyə görə? Səbəb çox sadədir. Çünki cənab Antoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il qurduğumuz ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi. Biz hər zaman ABŞ-ın çox etibarlı, yaxın tərəfdaşı olmuşuq. Biz onlara lazım olanda onlarla idik. Biz onlara İraqda lazım olanda, qoşunla onlarla idik. Biz onlara Əfqanıstanda lazım olanda, 2001-ci ildə Əfqanıstanda əməliyyatlara qoşulan ilk qeyri-NATO ölkələrindən idik və oradan sonuncu çıxdıq. Lakin biz çıxandan sonra onlar bizə sanksiya tətbiq etdilər. Xatırlayıram ki, bu, Azərbaycanda böyük məyusluq yaratdı. Mən onların bəzi nümayəndələrinə söylədim ki, biz sizə necə inana bilərik? Biz sizə lazım olanda sanksiyanı dayandırırsınız. Biz sizə artıq lazım olmayanda, sanksiyanı yenidən tətbiq edirsiniz. Onda, uzunmüddətli münasibətləri sizinlə necə qura bilərik? Beləliklə, çox maraqla baxırıq. Birincisi, ona görə ki, biz Azərbaycanda Dövlət Departamentinin bütün səylərinə baxmayaraq, ABŞ-Azərbaycan münasibətlərini uçurumdan tam xilas etdik. İkincisi, ümid edirik ki, yeni Administasiya ilə Cənubi Qafqaz, sülh, təhlükəsizlik, antiterror əməliyyatları, regionumuzun müasir inkişafı üçün hər zaman vacib olmuş güclü tərəfdaşlığımızı yenidən quracağıq.

Birmənalı olaraq, bu gün Forumda bütün natiqləri dinləmək çox maraqlı olacaq. Həmişə olduğu kimi, əminəm ki, Forum və onun üzvləri xüsusən də indi, kəskin geosiyasi dəyişikliklərdən sonra keçirilən tədbirdə ideya və yanaşmalar irəli sürəcəklər. Bir daha bizimlə olduğunuza görə təşəkkür edirik. Dəvətimizi qəbul etdiyinizə görə minnətdarıq və Foruma uğurlar arzu edirəm.

# Bir bayraq altında

**Müxtəlif beyin mərkəzləri tərəfindən XXI əsrin Türk əsri kimi səciyyələndirilməsi təsadüfi deyil. Zamanında ayrı-ayrı imperialist güc mərkəzləri Türk dünyasını parçalamaq məqsədilə məkrli planlar qurub və müəyyən dərəcədə istəklərinə nail olublar. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə tarixi torpağımız Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana birləşdirilməsi ilə əslində Türk dünyasının coğrafi tamlığı pozulub. Ancaq imperialist güc mərkəzləri nə qədər çalışsalar da, Türk xalqlarının qəlbindən, ruhundan bir-birinə sevgi, rəğbət hissini və birləşmək istəyini çıxara bilmədilər.**

**Nəhayət, məlum geosiyasi proseslər fonunda tarixi ədalətin bərpası və Türk birliyinin təmin olunması üçün şərait yetişib. Türk Dövlətləri Təşkilatının (TDT) yaranması bu istiqamətdə atılan çox mühüm addımdır. Bu günlərdə isə Türk Dövlətləri Təşkilatının yenilənmiş bayrağına keçidin rəsmi olaraq tamamlanması münasibətilə təşkilatın İstanbuldakı qərargahının önündə bayraq qaldırma mərasimi keçirilib. Mərasimdə TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev, Türkiyə, Qırğızıstan, Qazaxıstan və Özbəkistanın xarici işlər nazirlərinin müavinləri, eləcə də Azərbaycan xarici işlər nazirinin müavini Samir Şərifov iştirak ediblər.**





## Böyük coğrafiyada böyük potensial

Dünyada Türk birliyi böyük coğrafiya, zəngin resurslar, müxtəlif istiqamətlərə uzanan nəqliyyat yolları, artan gənc əhali anlamında qəbul olunur. Tarixi bağlılıq, milli-mənəvi dəyərlərin eyni kökdən gəlməsi, humanitar sahə, siyasi maraqların uzlaşması, coğrafi bağlılıq, din, etiqad vəhdəti türkdilli ölkələrin birliyini mümkün və zəruri edir. Bu kimi fundamental amillərə əsaslanan cəmiyyətlər və dövlətlər yaxınlaşmaq niyyətlərini nümayiş etdiriblər və birlik baş tutub, hazırda da yeni bağlarla möhkəmlənməkdə davam edir. Yuxarıda sadalananlardan da göründüyü kimi, Türk Dövlətləri Təşkilatının əsasında hansısa saxta amillər dayanmır. Bu da qurumun gələcəkdə funksionallığını artıracağına, beynəlxalq miqyasda Türk dünyasının qüdrətini layiqincə nümayiş etdirəcəyinə, bütövlükdə, regional və qlobal əməkdaşlığın möhkəmlənməsinə sanballı töhfələr verəcəyinə böyük əminlik yaradır.



Qarşılıqlı əlaqələrin möhkəmlənməsində tarixi amillərlə yanaşı, güclü iqtisadi potensial mühüm rol oynayır. Azərbaycan və digər türkdilli ölkələr öz iqtisadiyyatlarını intensiv şəkildə genişləndirirlər. Türkiyə 761.4, Qazaxıstan 181.7, Özbəkistan 57.9, Azərbaycan 48, Türkmənistan 48 və Qırğızıstan 8,5 milyard dollar nominal ÜDM-ə malikdir. Mütəxəssislərin qənaətinə görə, təşkilat daxilində iqtisadi və ticari əməkdaşlığı daha sistemli şəkildə əlaqələndirmək mümkündür. 1.5 trilyon nominal ÜDM-ə malik olan türkdilli ölkələr yeni regional əməkdaşlıq modeli yaradırlar. Deyə bilərik ki, regionun yeni iqtisadi xəritəsi formalaşmaqdadır. Türk dövlətləri arasında ticarət dövriyyəsi 2022-ci ildəki 33 milyard ABŞ dollarından 2023-cü ildə 42 milyard dollara yüksəlib. Bu, il ərzində 27,3 faiz artım deməkdir. 2024-cü ildə isə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qarşılıqlı ticarət dövriyyəsi əhəmiyyətli həcmlərdə artaraq 58,17 milyard dollara çatıb. 2025-ci ildə isə Türk dövlətləri birgə ticarəti ən azı 60 milyard dollara, əlavə dəyərləri isə 2 trilyon dollara çatdırmağı qarşıya məqsəd qoyublar.

## Sıx inteqrasiya yolunda

Hazırda beynəlxalq miqyasda müşahidə edilən geosiyasi və geoiqtisadi reallıqlar şəraitində Türk dünyasının sıx inteqrasiyası zəruri bir çağırışa çevrilib. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısında etdiyi çıxışlarında Türk birliyini vahid ailə kimi səciyyələndirib və bildirib ki, bizim başqa ailəmiz yoxdur. Yaranan çağırışlara uyğun olaraq Türk dövlətləri cəmiyyətlərin istəyinə və tarixi bağlara əsaslanmaqla inteqrasiyanın dərinləşməsinə güclü siyasi iradə göstərirlər. "Türk birliyi - 2040" vizionu qəbul edilib və hazırda böyük coğrafiyada yerləşən ölkələr bu hədəflərinə çatmaqdan ötrü ayrılıqda və birlikdə böyük səy göstərirlər.

Son illərdə güclənən bu inteqrasiya müxtəlif istiqamətləri əhatə edir. TDT ölkələri ticarət dövriyyəsinin artırılması üçün bir sıra hədəf nöqtələri müəyyənləşdirib ki, onlardan biri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda (Orta Dəhliz) nəqliyyat və logistikada bağlantılarını inteqrasiya etmək, dəhlizin daşıyıcılıq gücünü və rentabelliyini möhkəmləndirməkdir.

Hazırda TDT-da birləşən ölkələr sadələşdirilmiş gömrük dəhlizinin yaradılmasına güclü siyasi iradə göstərirlər. Yeni geosiyasi reallıqlar fonunda TDT-da birləşən dövlətlər arasında şərtləri uzlaşdırılmış sadələşdirilmiş gömrük dəhlizinin yaradılması daşımaların intensivliyinə öz müsbət təsirini göstərəcək. Proqnozlara görə, nəqliyyat-logistika sistemlərində asan gömrük rejiminin tətbiqi nəticəsində 2030-cu ilə qədər Orta Dəhlizdə daşınan yüklərin həcmi 3 dəfə artaraq 11 milyon tona çatacaq.

Türk İnvestisiya Fondunun (TİF) yaradılması haqqında Sazişin imzalanması inteqrasiya yolunda atılan mühüm addımlardan biridir. Sənəd 2023-cü il 16 mart tarixində TDT-nın Ankara sammitində imzalanıb və Prezident İlham Əliyev müvafiq qanunu təsdiqləyib. Fond Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin iqtisadi potensialının inkişafına, onlar arasında ticari-iqtisadi əməkdaşlığın gücləndirilməsinə, birgə layihələrin həyata keçirilməsinə investisiyalar yönəltmək məqsədilə yaradılıb. Xatırladaq ki, Türk İnvestisiya Fondunun yaradılması təşəbbüsü Prezident İlham Əliyevə məxsusdur. Fondda ölkəmizin payı 100 milyon dollar təşkil edir. Ümumiyyətlə, qaşılıqlı inteqrasiyanın dərinləşdirilməsi məqsədilə görülən işlərin miqyası kifayət qədər genişdir. Bu məqsədlə həmçinin mədəni-humanitar sahədə də yeni-yeni layihələr reallaşdırılır.

Türk dünyasının əməkdaşlıq təşkilatları arasında xüsusi yeri olan Türk Mədəniyyəti və İrsi Fondu 2015-ci ildən fəaliyyət göstərir. Azərbaycanın təşəbbüsü ilə yaradılan təşkilatın mənzil-qərargahı Bakıda yerləşir. Artıq çoxdan müzakirələri aparılan ortaq Türk əlifbası razılaşdırılıb. Belə bir razılaşma 2024-cü il sentyabrın 9-dan 11-dək Bakıda Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu tərəfindən təşkil olunan "Türk Dünyası Ortaq Əlifba Komissiyası"nın üçüncü iclasında əldə olunub. Hazırda meydana çıxan əsas çağırışlardan biri ortaq dilin yaradılması ilə bağlıdır və bu istiqamətdə də intensiv müzakirələr aparılır. Layihədə milli Türk dillərinin mövcudluğunun qorunması əsas prioritetlərdən biri kimi nəzərdə tutulub.

## Türk xalqlarının ortaq dəyərlərini əks etdirən bayraq

İstanbulda bayraq qaldırma mərasimində çıxış edən TDT-nin baş katibi yenilənmiş bayraqdakı səkkizguşəli ulduzun yüz illərdir mövcud olan Türk dövlətçilik ənənəsi, birliyi və gücünü ifadə etdiyini bildirib.

Türk-İslam ənənəsinə görə, səkkizguşəli ulduzun müdriklik rəmzi olduğunu vurğulayan Ömüralıyev deyib: "Bu bayraq qardaşlığımızın gücünü, əməkdaşlığımızın dərinliyini və birgə qurduğumuz parlaq gələcəyi təmsil edir, Türk dünyasında formalaşan imkanların artırılması və əməkdaşlığın gücləndirilməsi istiqamətində qətiyyətimizin göstəricisidir".

Tədbirdə çıxış edənlər ötən il noyabrın 6-da Bişkekdə keçirilən Dövlət Başçıları Şurasının XI Zirvə görüşünü xatırladaraq bu toplantını Türk dünyasının inteqrasiyasını dərinləşdirəcək qərarların qəbulu baxımından ortaq fəaliyyətimizin dönüm nöqtəsi kimi qiymətləndiriblər. Bildirilib ki, Zirvə görüşündə qəbul edilən simvolik baxımdan əhəmiyyətli qərarlardan biri də yenilənmiş TDT bayrağının qəbulu olub və bu bayraq bütün üzv dövlətlərin, eləcə də Türk xalqlarının ortaq dəyərlərini əks etdirəcək şəkildə yenilənib.

***Mübariz ABDULLAYEV***

# "Azərbaycanın bitki örtüyü" kitabının təqdimat mərasimi olub

Bakı Dövlət Universitetinin (BDU) Botanika və bitki fiziologiyası kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Elşad Qurbanovun "Azərbaycanın bitki örtüyü" kitabının təqdimat mərasimi olub. Tədbirdə dövlət rəsmiləri, millət vəkilləri, tanınmış ziyalılar, elm və təhsil müəssisələrinin nümayəndələri, KİV mənsubları və digər qonaqlar iştirak ediblər.

Mərasimi giriş nitqi ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq ictimaiyyətə təqdim olunan, "Elm günü"nə həsr olunmuş kitabın yeni dövrün, XXI əsrin dünya miqyasında elm sahəsində qlobal çağırışlarına cavab verən əsər kimi mühüm əhəmiyyətə malik olduğunu bildirib.

2024-cü ilin Prezident İlham Əliyev tərəfindən ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" olduğunu xatırladan AMEA rəhbəri, həmçinin ötən il Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi etdiyini bildirib.

AMEA-nın prezidenti qeyd edib ki, ötən il Bakıda keçirilən və uğurlu nəticələrlə yadda qalan COP29 tədbiri və "Yaşıl dünya naminə həmrəylik ili" tədbirlərindən sonra cəmiyyətimizdə yaşıl dünyanın formalaşması ilə bağlı çağırışlar daha da aktuallaşmış, xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır: "Əlbəttə ki, bu çağırışlar prioritet istiqamətlərdə elmi tədqiqatların aparılması üçün yeni perspektivlər təqdim edir. Bu isə, alim və ziyalılarımızı müvafiq istiqamətdə elmi araşdırmalarını dərinləşdirməyə, aktual mözulara həsr olunmuş məqalələr vasitəsilə elmi biliklər cəmiyyətə çatdırmağa təşviq edir".

Bu gün cəmiyyətimizə "yaşıl iqtisadi zona", "yaşıl iqtisadiyyat", "yaşıl texnologiya", "yaşıl enerjetika" və "yaşıl artım" kimi müxtəlif yeni anlayış və baxışların daxil olduğunu deyən akademik İsa Həbibbəyli bu istiqamətlərdə elmi qurumlar və dövlət müəssisələrinin qarşısında qoyulan vəzifələr çərçivəsində fəaliyyətin daha da gücləndirilməsinin zəruriliyini vurğulayıb. AMEA rəhbəri bildirib ki, müasir dövrdə "yaşıl dünya" anlayışı təkcə təbiətin mühafizəsi ilə məhdudlaşmır, həm də müxtəlif aspektlərdə tədqiqatların aparılmasına səbəb olur ki, bu da həm elm sahəsində, həm də bütövlükdə cəmiyyətdə "yaşıl sivilizasiya" anlayışının meydana çıxmasına gətirib çıxarır.

Akademik İsa Həbibbəyli ölkəmizdə botanika sahəsində ixtisaslaşmış alim olan Elşad Qurbanovun "Azərbaycanın bitki örtüyü" kitabının elmi məziyyətlərindən danışıb, nəşrdə Azərbaycanın bitki örtüyü ilə bağlı tədqiqatların ümumiləşdirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, əsərdə Azərbaycanın bütün botanikicoğrafi rayonları üzrə respublikamızda rast gəlinən bitkilik tiplərinin taksonları, onların yayıldığı ərazilər və müasir vəziyyəti haqqında məlumatlar əks olunmuşdur. O, AMEA-nın müxbir üzvü Elşad Qurbanovun istinad etdiyi və öyrəndiyi materiallar əsasında "Azərbaycanın bitki örtüyü" xəritəsini də tərtib etdiyini söyləyib.

AMEA rəhbəri çoxillik tədqiqatların və böyük zəhmətin məhsulu olan kitabı təbiət elmləri sahəsinə sanballı elmi töhfə kimi dəyərləndirib, nəşrin gənc nəsillər üçün bələdçi rolunu oynadığını vurğulayıb. O, fundamental monoqrafiyanın mövzusunun gələcəkdə tədqiqatçılar üçün əsas istiqamətverici mənbələrdən biri olacağına əminliyini bildirib.

Çıxışının sonunda akademik İsa Həbibbəyli müstəqil Azərbaycan dövlətinin zəngin təbiətini daha dərindən öyrənmək baxımından kitabın qiymətli vəsait və "Elm günü"nə dəyərli töhfə olduğunu söyləyib, müəllifə yeni yaradıcılıq uğurları arzulayıb.

Sonra çıxış edən AMEA-nın vitse-prezidenti, ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova "Azərbaycanın bitki örtüyü" kitabının ərsəyə gəlməsinin aktuallığına və vacibliyinə diqqət çəkib. Bildirib ki, AMEA-nın müxbir üzvü Elşad Qurbanov tərəfindən hazırlanmış "Azərbaycanın bitki örtüyü" kitabı, "Azərbaycanın bitki örtüyü xəritəsi" və "Azərbaycanın botaniki-coğrafi rayonlarının xəritəsi" 40 ildən çox müddətdə sistemləşdirilməmiş bitkilik tiplərinin müasir vəziyyətini nizamlı şəkildə tam əks etdirən mükəmməl əsərlərdir.



Akademik İradə Hüseynova yeni nəşrdə Azərbaycan ərazisinin bitkiliklərini əks etdirən 17 fəsilənin verildiyini söyləyib. O, kitabda bitkilik tiplərinin formasiya qruplarına və assosiasiyalara bölündüyünü, onların hər biri üçün eddifikator növlərin verildiyini deyib.

"Elşad Qurbanov Azərbaycan Respublikası üçün morfoloji, ekoloji əlamətlərinə, dominant və subdominant növlərinə görə fərqlənən "səhra" və "psevdomakki" bitkilik tiplərinin ölkə ərazisində yayıldığını isbat edərək, elmə yenilik gətirmiş və onları bitkilik xəritəsinə də əlavə etmişdir", - deyə bildirən vitse-prezident xəritələrə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflik şəhadətnaməsinin verildiyini vurğulayıb. Qeyd edib ki, bu xəritələrə yalnız botaniklər deyil, təbiət elmləri sahəsində elmi-tədqiqat işləri yerinə yetirən mütəxəssislər, müəllimlər, magistrantlar istinad edə bilərlər.

Akademik İradə Hüseynova monoqrafiyanı ölkənin zəngin və müxtəlif ekosistemlərini ətraflı şəkildə təsvir edən əhəmiyyətli elmi əsər kimi dəyərləndirib. O, kitabın Azərbaycanın təbii sərvətlərinin qorunması və davamlı istifadəsi ilə bağlı maarifləndirmə işlərinə, eləcə də elmi tədqiqatların inkişafına mühüm töhfələr verəcəyinə əminliyini bildirib.

Tədbirdə Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini b.ü.f.d. Vüqar Kərimov Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynova, Gəncə Dövlət Universitetinin Botanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Vaqif Novruzov, millət vəkili, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və Botanika İnstitutunun baş direktoru, professor Səyyarə İbadullayeva çıxış edərək kitab haqqında fikirlərini bölüşüb, nəşrin müasir dövrdə Azərbaycan elmi üçün mühüm məlumatların toplandığı dəyərli vəsait olduğunu bildiriblər.

# Milli Məclis xarici ölkələrin parlamentlərinə məktub göndərib



Hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərlə bağlı Azərbaycanda keçirilən məhkəmə prosesi ilə əlaqədar Milli Məclis tərəfindən xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının rəhbərlərinə, parlamentlərin beynəlxalq komitələrinin sədrlərinə və beynəlxalq parlament təşkilatlarına məktub ünvanlanıb. Məktubda Azərbaycanın hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin məhkəmə prosesini pozmağa cəhd edən əsassız qarayaxma kampaniyası ilə üzləşdiyi qeyd olunaraq, həmin şəxslərin Ermənistanın 30 il davam etmiş hərbi təcavüzü çərçivəsində hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlər, etnik təmizləmə, hərbi təcavüz, soyqırımı aktları, işgəncələr və digər ağır cinayətlər törətməkdə ittiham olunduqları diqqətə çatdırılır. Bu məsələ ilə bağlı irəli sürülən yalan iddiaların məhkəmənin legitimliyini şübhə altına almaq məqsədi daşıdığı vurğulanaraq, qeyd edilir ki, hərbi cinayətkarları "hərbi əsir" adlandırmaq və onların azad olunmasını tələb etmək, vəziyyətin mahiyyətini bilməməkdən və ya onu qəsdən görməzdən gəlməkdən irəli gəlir.

Daha sonra mühakimə olunanların Azərbaycan dövlətinə və xalqına qarşı törətdiyi cinayətlər faktlarla diqqətə çatdırılır. Bu şəxslərin Azərbaycan ərazilərinə qarşı həyata keçirilmiş hərbi təcavüzü planlaşdıran və icra edən, eyni zamanda hərbi təcavüz və bəşəriyyətə qarşı cinayətlər törədənlər arasında olduqları vurğulanır. Lakin bugünədək bu müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə görə Ermənistanda bir nəfərin belə məsuliyyətə cəlb olunmadığı, əksinə, Ermənistanın bu cinayətkarları qəhrəman kimi tərənnüm etməkdə davam etdiyi ifadə edilir. Qeyd olunur ki, aparılan istintaq zamanı Ermənistanın və onun hərbi-siyasi rəhbərliyinin hərbi təcavüz və işğala görə məsuliyyət daşıdığını sübut edən mühüm faktlar aşkar olunub. Həmçinin bildirilir ki, bəzi siyasətçilərin, parlament üzvlərinin və media nümayəndələrinin əsassız iddialarına baxmayaraq, bu şəxslərin vəkil tutmaq hüququ tam təmin edilir, onlara qarşı hər hansı pis rəftar barədə heç bir şikayət daxil olmayıb və məhkəmə prosesləri tam şəffaf şəkildə aparılır.

Yekunda vurğulanır ki, Azərbaycanın ərazisində müharibə cinayətkarlarının ədalətli mühakiməsinə qarşı çıxanlar açıq şəkildə etnik təmizləməni, işğalı və təcavüzü dəstəkləyirlər. Ədalət olmadan sülh mümkün deyil və ədalət yalnız cəzasızlığa sona çatdırıldıqda bərqərar ola bilər. Məktuba Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyi dövrdə törətdiyi müharibə cinayətləri və insanlığa qarşı cinayətləri özündə ehtiva edən və BMT Baş Assambleyasının və BMT Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi qəbul edilmiş 2019-cu il tarixli "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində müharibə cinayətləri və Ermənistan Respublikasının məsuliyyəti haqqında Hesabat" da əlavə edilib.



Ceyhun Bayramov: İrəvan açıq qalan 2 maddəni qəbul edib

# Sülh sazişinin mətni üzrə danışıqlar yekunlaşıb

Azərbaycanla Ermənistan arasında sülh sazişinin mətni ilə bağlı danışıqlar prosesi artıq yekunlaşıb. Artıq Ermənistan son açıq qalan 2 maddəni qəbul etdiyini Azərbaycana çatdırıb. Bu barədə xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib. Nazir vurğulayıb ki, mətn üzrə işlər yekunlaşıb. Sonrakı mərhələdə artıq Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırılmalıdır. Əlavə olaraq Minsk qrupu və onun qalıqlarının da ləğv olunması həyata keçirilməlidir.

Qeyd edək ki, sülh sazişi layihəsi 17 maddədən ibarətdir. İndiyədək saziş layihəsinin 15 maddəsi razılaşdırılmışdı. Razılaşdırılmamış maddələrdən biri bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaq, digəri başqa ölkələrin nümayəndələrini Azərbaycan-Ermənistan sərhədində yerləşdirməməklə bağlı idi.

# Avrasiya Bankı Azərbaycana investisiya yatırmağa hazırdır

Avrasiya İnkişaf Bankı Azərbaycanda müxtəlif sahələr üzrə layihələrin maliyyələşdirməsinə hazır olduğunu bəyan edib. Bu barədə Avrasiya İnkişaf Bankının (AİB) İdarə Heyətinin sədri Nikolay Podquzov bildirib. Bankın nümayəndə heyəti ilə Azərbaycanın maliyyə naziri Sahil Babayev arasında keçirilən görüşdə N.Podquzov Bankın yaradılması, fəaliyyəti, hazırkı üzvləri, eləcə də üzv ölkələrdə maliyyələşdirilən layihələr barədə ətraflı məlumat verib. O, Bankla Azərbaycan arasında əməkdaşlıq üçün böyük imkanların olduğunu diqqətə çatdırıb.

S.Babayev Azərbaycanın beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu və Avrasiya İnkişaf Bankı ilə də əməkdaşlıq məsələsinin nəzərdən keçiriləcəyini qeyd edib. AİB-in fəaliyyəti, layihələri maliyyədirmə prosedurları və bu sahədə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

**AİB Azərbaycanın səhmdar olmasında maraqlıdır**

Avrasiya İnkişaf Bankı Azərbaycanın bu maliyyə institutunda yer almasında maraqlıdır. Bankın rəhbərliyi ölkəmizin bu qurumun səhmdarlarının sırasına qoşulmasına ümid etdiyini bəyan edib. Bir müddət əvvəl AİB-in idarə heyətinin sədri Nikolay Podquzov bildirib ki, bank öz sıralarına yeni iştirakçıların cəlb edilməsi yolu ilə səhmdarların sırasının genişlənməsinə çalışır. Onların sırasında Azərbaycan xüsusi etimad göstərilir. "Biz banka yeni iştirakçıların cəlb edilməsi üzrə fəaliyyətimizi gücləndirmək istəyirik. Avrasiya regionunda fəaliyyət göstərən bank olaraq görürük ki, ilk növbədə regiondakı qonşu ölkələr namizəd ola bilər. Aydındır ki, Türkmənistan, Monqolustan və ya Azərbaycan kimi ölkələr bankın həqiqi tərəfdaşları ola bilərdi. Yaxın Şərq ölkələri Mərkəzi Asiya regionuna investisiya yatırmaqda maraqlıdırlar" - deyə Podquzov vurğulayıb.

AİB rəhbəri qeyd edib ki, danışıqlar prosesinin hər hansı konkret nəticələri ilə bağlı məlumat verilməsə də, 2025-ci ildə banka yeni səhmdarların daxil olacağına əminik. Nəticədə bu maliyyə institunun coğrafi fəaliyyəti daha da genişlənəcək.

**Yeni üzvlər investorlar klubunu genişləndirə bilər**





Avrasiya İnkişaf Bankı Avrasiya ölkələrində iqtisadiyyatların, ticarət və digər iqtisadi əlaqələrin inkişafına və inteqrasiyaya sərmayə qoyan beynəlxalq maliyyə institutudur. Bankın əsas missiyası üzv dövlətlərdə bazar iqtisadiyyatlarını və iqtisadi artımı təşviq etmək və investisiyalar vasitəsilə onlar arasında ticarət və digər iqtisadi əlaqələrin genişləndirilməsinə kömək etməkdir. 2006-cı ildə yaradılmış təsisatın Baş ofisi Qazaxıstanın Almatı şəhərində yerləşir. 7 milyard dollardan çox nizamnamə kapitalına malik olan Avrasiya İnkişaf Bankı regionda iri maliyyə institutlarından biri kimi nəhəng layihələrin, regional proqramların maliyyələşdirilməsində aktiv investor kimi çıxış edir.

Bankın səhmdarları 6 ölkədir. Özbəkistan hazırda banka qoşulma ərəfəsindədir.

Misir, İsrail, Hindistan, İndoneziya, İran, Yaponiya, Monqolustan, Sinqapur, Tailand, Koreya Respublikası və Vyetnam bu təşkilata üzv olmaq niyyətindədir. Bankın Sankt-Peterburqda filialı və Astana, Bişkek, Düşənbə, Minsk Moskvada isə nümayəndəlikləri var.

*E.CƏFƏRLİ*

# Aİ ciddi imtahan qarşısındadır



## Brüssel Ankaraya ehtiyac duyur

**Ukrayna müharibəsi dünyanın yeni siyasi nizamının formalaşmasında olduqca mühüm rol oynamaqdadır. Görüntü xatirinə yaranmış müttəfiqliklər, maddi maraq üzərində fokuslanan strateji planlar, yeni "istəklər və arzular" bu münaqişənin ortaya çıxardığı reallıqlara çevrildi - xüsusilə, Avropa İttifaqının müharibənin yaratdığı fon nəticəsində proseslərdən maksimum qazanclı çıxmaq niyyəti boşa getdi. Diqqət yetirdikdə, Avropa İttifaqı müəyyən mənada Ukrayna müharibəsinin sona yetməməsində maraqlı tərəf kimi görünür. Bunun da səbəbləri var. ABŞ-ın "köhnə qitə"nin təhlükəsizlik çətirini "bağlaması" ilə yaranacaq boşluq indidən Aİ-ni düşündürür və narahat edir. Təsadüfi deyil ki, Avropanın aparıcı siyasi liderləri imkan düşən anda, gələcək planları, xüsusilə təhlükəsizlik məsələsi ilə bağlı planları önə çəkir. Təsadüfi deyil ki, bir neçə gün öncə Brüsseldə baş tutan toplantıda da AK rəhbəri Ursula fon der Leyen özünün təhlükəsizlik planını təqdim etmişdi.**

### Ukrayna məsələsində fərqli mövqe...

Eyni zamanda, son dövrlərdə Türkiyə regional aktordan qlobal aktora çevrilmək yolunda əsaslı addımlar atıb. Fərqli coğrafiyalarda baş verən kataklizmlərin həllində oynadığı müstəsna rol, vasitəçilik, eyni zamanda, bölgənin təhlükəsizliyinin təminatının artırılması üçün ortaya qoyduğu səylər Ankaranın siyasi platformadakı çəkisini daha da artırır. Bunun nəticəsidir ki, uzun illərdir Türkiyənin Aİ-yə daxil olmasını əngəlləyən ölkələr artıq Ankaraya açıq ehtiyac duyduqlarını dilə gətirirlər. Aİ özünün ən kritik məqamlarında Ankaraya üz tutur - xüsusilə, Ukrayna məsələsində tənzimləyici rolda çıxış edən və özünün bitərəfliyini qoruyaraq həm Rusiya, həm də Kiyevin etimadını qazanan Türkiyə bir nümunə ortaya qoydu. Təsadüfi deyil ki, bu gün fərqli qütblərin aparıcı dövlətləri məhz İstanbulda və Ankarada bir masa arxasında otura bilir - buna ən real misal bir neçə gün öncə İstanbulda baş tutmuş ABŞ-Rusiya danışıqlarının yeni raundu idi.

Yeri gəlmişkən, Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra jurnalistlərə açıqlamasında bildirib ki, Avropa İttifaqı təhlükəsizliklə bağlı ciddi imtahan qarşısındadır. İttifaqa üzv ölkələr xüsusilə Ukrayna ilə bağlı hadisələri narahatlıqla izləyir: "İndi Türkiyənin ilk gündən ortaya qoyduğu balanslaşdırılmış mövqeyinə daha çox önəm verilir. Rusiya və ya Ukrayna olmadan daimi sülhə nail olmaq mümkün deyil".

Ərdoğan vurğulayıb ki, Ankara Aİ ilə münasibətləri inkişaf etdirmək istəyir: "Türkiyənin rolunu başa düşməli, strategiyalarını buna uyğun müəyyənləşdirməlidirlər. İnanıram ki, Türkiyə ilə Avropa arasında əlaqələr hər sahədə sürətlə inkişaf edəcək".



*P.İSMAYILOV*

### Türkiyənin hərbi gücü ildən-ilə artır...



Amma diqqətçəkən bir məqam da var - son proseslər Aİ-nin "müzakirə arealını" bir az da genişləndirib. Belə ki, Aİ artıq Türkiyənin də müzakirələrdə iştirakına böyük ehtiyac duyur. Bu, hər addımda bəlli olur. Təbii ki, bu da gözlənilən idi. ABŞ-ın Avropaya "yeni təhlükəsizlik arxitekturası" çağırışı "köhnə qitə"ni Ankaraya açıq şəkildə möhtac edir. NATO-nun ikinci ən böyük ordusuna sahib olan Türkiyə son illərdə müdafiə sənayesinə etdiyi böyük sərmayələrlə hərbi potensialını əhəmiyyətli dərəcədə gücləndirib.

"Global Firepower 2024"-ün məlumatlarına görə, Türkiyə Silahlı Qüvvələri aktiv və ehtiyat hərbi qulluqçular da daxil olmaqla, ümumilikdə 883 min 900 şəxsi heyətə malikdir. Bu, Türkiyəni dünyanın ən güclü orduları sırasına daxil edir. Türkiyə Hərbi Hava Qüvvələri (HHQ) 1069 hərbi hava vasitəsi ilə hava üstünlüyü təmin etmək gücünə sahibdir. Xüsusilə, 5-ci nəsil döyüş təyyarəsi olan "Kaan"ın inkişafı ilə bağlı planlar bu gücü daha da artırmağı hədəfləyir. Bundan əlavə, Türkiyənin pilotsuz uçuş aparatları (PUA) və zərbə PUA-sı texnologiyaları sahəsindəki uğurları da diqqətəlayiqdir. Bu sahədəki inkişaf, Türkiyə Silahlı Qüvvələrinə kəşfiyyat məlumatlarının toplanması, hədəfin aşkarlanması və dəqiq zərbə imkanları kimi strateji üstünlüklər verir.

Eyni zamanda, Türkiyə Hərbi Dəniz Qüvvələri (HDQ) strateji mövqeyinə uyğun olaraq yüksək səviyyəli döyüş qabiliyyətinə malikdir. Donanmasında 16 freqat, 9 korvet, 11 döyüş mina gəmisi, 34 patrul gəmisi, 12 sualtı qayıq və digər müxtəlif dəniz vasitələri mövcuddur. Bu güclü donanma, Türkiyənin dənizlərdəki mövqeyini möhkəmləndirir.

Quru Qoşunları isə inventarında 2231 tank və 55 min 104 zirehli vasitə ilə seçilir. Bu, Türkiyənin regional və qlobal təhlükələrə qarşı quru əməliyyatı qabiliyyətini nümayiş etdirir. Eyni zamanda, sərhədləri aşan əməliyyat imkanları ilə regional təhlükəsizlikdə əsas rol oynayır.

Hərbi büdcəyə gəldikdə isə, Türkiyə 2025-ci ildə müdafiə və təhlükəsizlik sektoruna rekord məbləğdə büdcə ayırıb- Müdafiə Sənayesini Dəstək Fonduna (SSDF) ayrılan resurs da daxil olmaqla, ümumilikdə 1 trilyon 608 milyard lirə (təxminən 47 milyard ABŞ dolları) müdafiə və təhlükəsizlik sahəsinə yönəldilib. Bu büdcə, 2024-cü illə müqayisədə 80 faiz artım nümayiş etdirir.

# Rəsmi İrəvan konstitusiya dəyişikliyini yubadır

Otuz illik gərginlikdən, müharibə təhdidlərindən sonra Cənubi Qafqaz coğrafiyasında sülh üçün heç vaxt olmadığı qədər real şanslar yaranıb. Bu, güclü Azərbaycanın formalaşdırdığı reallıqlar sayəsində mümkün olub. Postmüharibə dövründə sülhyaratma prosesində müəyyən mərhələ keçilib və bir sıra razılaşmalar əldə olunub. Qalib Azərbaycan prosesin məntiqi sonluqla tamamlanması üçün güclü siyasi iradə ortaya qoyur. Məğlub Ermənistan barəsində isə eyni fikirləri ifadə etmək mümkün deyil. Müharibənin başa çatdığı 2020-ci ildən bəri sülh sazişinin imzalanmamasının bütün məsuliyyəti Ermənistan dövlətinin üzərinə düşür. Məhz bu ölkənin rəsmiləri müxtəlif manipulyasiyalara əl atmaqla sülhyaratma prosesini məqsədli şəkildə ləngidirlər.

Bu gün Ermənistanda ucuz manipulyasiya predmetinə çevrilən mövzulardan biri də ölkənin konstitusiyasının dəyişdirilməsi ilə bağlıdır. Baş nazir Nikol Paşinyanın özü və komandasının, eləcə də vətəndaş cəmiyyətinin nümayəndələri sülhyaratma prosesində digər məsələlərə yanaşmalarda olduğu kimi, konstitusiyanın dəyişdirilməsində də ardıcıl mövqe sərgiləmirlər, necə deyərlər, gah nala vururlar, gah da mıxa.

## Davamlı sülh üçün Azərbaycanın irəli sürdüyü zəruri şərt

Azərbaycan müharibənin qalibi olmasına rəğmən, qarşı tərəfə hər hansı bir ilkin şərt irəli sürmədən sülh təşəbbüslərindən çıxış edir. O cümlədən ölkəmizin sülh təşəbbüsləri bir qayda olaraq praktiki müstəvidə atılan addımlarla dəstəklənir. Sülhyaratma prosesinə mücərrəd anlamda yanaşmaq olmaz. Real sülh üçün dövlətlərin siyasi iradəsinə, cəmiyyətlərin istəyinə uyğun əsasların yaradılması şərtdir. Əgər bunlar yoxdursa, hansı sülhdən danışmaq mümkündür?

Məğlub Ermənistanın hazırda qüvvədə olan konstitusiyasının dəyişdirilməsi tələbi də Azərbaycandan gəlib. Bəli, bu gün aydın şəkildə başa düşülür ki, məğlub ölkənin əsas qanunu sülh yolunda irəliləməyə mane olan bir kötükdür. Onu bu yoldan götürmək lazımdır. Məsələnin mahiyyəti ondan ibarətdir ki, hələ 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul edib. Adından da göründüyü kimi, qərar sırf işğalçı mahiyyət daşıyır. Ermənistanın hazırkı konstitusiyasının preampula hissəsində bəhs olunan qərara istinad olunur. Bu isə o anlama gəlir ki, məğlub ölkənin sülhyaratma prosesində iştirakının əslində hüquqi əsası yoxdur. Dövlət olaraq Ermənistan bütün hərəkətlərini və fəaliyyətlərini konstitusiyaya əsaslanmaqla tənzimləməlidir. N.Paşinyan müxtəlif auditoriyalar qarşısında bir neçə dəfə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Baş nazirin bu qəbildən olan bəyanatları ölkəsinin əsas qanunu ilə ziddiyyət təşkil edir.

Bu ziddiyyəti aradan qaldırmaq üçün Ermənistanın konstitusiyası və digər qanunvericilik aktları dəyişdirilməlidir. Azərbaycan da bunu tələb edir.

## Hakim komanda qətiyyət göstərmir

Əslində, Ermənistan konstitusiyasının dəyişdirilməsi sağlam məntiq diqtə edir. İndiyədək xaricdəki erməni lobbisi, kilsə, keşişlər erməni xalqına usanmadan "dənizdən-dənizə böyük Ermənistan" mifini təlqin ediblər. Bu da Ermənistan cəmiyyətini eyforiyaya qapadıb. İş o yerə çatıb ki, qonşu dövlətlərə qarşı ərazi iddiaları ölkənin konstitusiyasında da təsbit olunub. 44 günlük müharibənin, 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticələri ermənilər üçün şok effekti yaratdı. İndi miflər tamam dağılıb, qurulan xəyallar suya qərq olub.



Azərbaycanın yaratdığı reallıqlar qəbul olunmalıdır. Erməni xalqının nicatı da qonşu dövlətlərə qarşı ərazi iddialarından əl çəkilməsindədir. Bunu Paşinyan da dərk edir. O, dəfələrlə ermənilərə çağırış edərək bildirib ki, xəyali Ermənistandan real Ermənistana dönüş etmək lazımdır. "Gerbimiz psixologiyamızı güclü şəkildə əks etdirir. Orada nə göstərilir? Ağrı dağında Nuhun gəmisi və Ermənistanın dörd çarlığının simvolları. Hamımız üçün müqəddəs olan bu obrazın 1991-ci ildə qurulan dövlətə nə dəxli var? Mərkəzə baxanda Ağrı dağında Nuhun gəmisini və indiki Ermənistan Respublikasının su altında qalan ərazisini görmək olar. Orada uzun müddət Ermənistanın təbii şəraitində yaşamayan şiri də görmək mümkündür. Müzakirə etdiyimiz bu problem, əslində, bizim hər birimizdə mövcud olan ikitirəlikdə - tarixi Ermənistanla real Ermənistan arasındadır. Nə qədər emosional və hansı arqumentlərlə əsaslandırılmasından asılı olmayaraq, sual yaranır: həqiqi Ermənistan tarixi Ermənistana, yoxsa tarixi Ermənistan həqiqi Ermənistana xidmət etməlidir?", - deyə Baş nazir parlamentdəki çıxışlarının birində vurğulayıb.

Lakin N.Paşinyan adi, sıradan bir erməni deyil. Qərarlar qəbul etmək, o cümlədən ölkəsini Azərbaycanın haqlı olaraq irəli sürdüyü tələblər əsasında konstitusiya dəyişikliyinə aparmaq onun birbaşa məsuliyyətidir. Paşinyan bir qədər bundan əvvəl növbəti dəfə "Yeni geosiyasi reallıqlar şəraitində ölkənin həyat qabiliyyətini təmin edəcək yeni konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi zəruridir" açıqlaması ilə çıxış edib. O, bir qrup vətəndaşla görüşündə bildirib ki, Ermənistan hakimiyyəti regional əhəmiyyət daşıyacaq yeni konstitusiya layihəsini təklif etməyə hazırlaşır. "Yeni konstitusiya üçün təklif etdiyim tezis geniş müzakirə olunub və Azərbaycanın irəli sürdüyü tələbin yerinə yetirilməsi kimi təqdim edilib. Reallıqda isə "Real Ermənistan" ideologiyası çərçivəsində başqa məna daşıyır. Baxmayaraq ki, bu şəraitdə mövcud ola biləcək mətnin özlüyündə regional əhəmiyyət daşıyacağını inkar etmək mümkün deyil", - deyə Paşinyan vurğulayıb.

Həmçinin Ermənistan parlamentinin spikeri Alen Simonyan və digər rəsmilər də oxşar məzmunlu bəyanatlar səsləndiriblər. Bununla belə,Ermənistan dövlətinin konstitusiya dəyişikliyi aparmaqla bağlı fəaliyyətləri bəyanatların səsləndirilməsindən, açıqlamaların verilməsindən uzağa getmir ki, bu da hakim komandanın qətiyyətsizliyinin göstəricisidir.

Yeri gəlmişkən, Azərbaycanla Ermənistan arasında sülh sazişinin mətni ilə bağlı danışıqlar prosesi artıq yekunlaşıb. Bunu xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında



deyib. O bildirib ki, artıq Ermənistan son açıq qalan iki maddəni qəbul etdiyini Azərbaycana çatdırıb: "Mətn üzrə işlər yekunlaşıb. Sonrakı mərhələdə artıq Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırılmalıdır. Əlavə olaraq Minsk qrupu və onun qalıqlarının da ləğv olunması həyata keçirilməlidir", - deyə nazir vurğulayıb.

Beləliklə, top Ermənistan iqtidarı tərəfindədir. Ermənistan konstitusiyası nə qədər tez dəyişdirilsə, sülh sazişi də bir o qədər tez imzalana bilər.

## Cəmiyyət konstitusiya dəyişikliyinə hazır deyil

Eyni zamanda, Ermənistan cəmiyyəti də konstitusiya dəyişikliyinə hazır deyil. Bunu "Qallup" beynəlxalq assosiasiyasının Ermənistan təmsilçiliyinin bu günlərdə apardığı rəy sorğusunun nəticələri bir daha təsdiqləyib. Respondentlərə "Konstitusiya dəyişikliyini zəruri sayırsınızmı" sualı ünvanlanıb. Rəyi soruşulanların 18,4 faizi qeyd edib ki, konstitusiyanın bəzi maddələrinin dəyişdirilməsinə zərurət var. 7,5 faiz yeni konstitusiyanın qəbul edilməsinin tərəfdarıdır. Rəy sorğusunun nəticələrinə əsasən, respondentlərin 59,6 faizi hesab edir ki, əsas qanunda hər hansı bir dəyişiklik yolverilməzdir. 14,5 faiz isə suala cavab verməkdə çətinlik çəkdiyini bildirib.

Diqqətçəkən məqam ondan ibarətdir ki, son bir ildə Ermənistan cəmiyyətində aqressivlik artıb. 2024-cü ilin yanvar ayında rəyi soruşulanların cəmi 34,2 faizi konstitusiyanın dəyişdirilməsinin əleyhinə olduğunu bildirib. Hazırda isə mühafizəkar yanaşma rəyi soruşulanların təxminən 60 faizini əhatə edir.

Son rəy sorğusunun nəticələri bu gün Ermənistan cəmiyyətində yaşananların bir göstəricisidir. Cəmiyyətdə aqressiyanın artması çox doğru olaraq Ermənistanda revanşizm ritorikasının güclənməsinin təsirləri ilə izah olunur. Hazırda Ermənistan sürətlə silahlanma yolundadır, burada sülhyaratma prosesi ilə bağlı müzakirələr arxa plana keçirilib, cəmiyyət "itirilmiş torpaqların geri qaytarılması" uğrunda başlayacaq yeni müharibəyə hazırlanır. Müxtəlif auditoriyalarda sülh prosesinə sadiqlikdən danışan hakim komanda təmsilçiləri bu təhlükəli prosesin qarşısını almasa, Ermənistanın tezliklə daha böyük faciələrlə üzləşməsi qaçılmaz olacaq.

*MÜBARİZ*

# Avropa İttifaqını çətin qərarlar gözləyir

*N.BAYRAMLI*

Hazırda Avropa İttifaqı (Aİ) məkanında problemlər artmaqdadır. ABŞ-ın yeni administrasiyasının verdiyi qərarlar Avropada ciddi narahatlıqla qarşılanır. Problemlər isə bir çox sahələri əhatə edir. Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen də Avropa Parlamentinin Strasburqda keçirilən sessiyasında çıxışı zamanı deyib ki, Avropa İttifaqının militarizasiyası prosesində sıçrayışa nail olmaq lazımdır və bu, cəsarətli və çətin qərarların qəbulunu tələb edəcək. Onun fikrincə, bu addım Rusiyanın qarşısını almaq üçün vacibdir. Xanım Lyayen həmçinin bildirib ki, yaxın 4 ildə Aİ-nin hərbiləşdirilməsi üçün Avropa Komissiyasının təklif etdiyi 800 milyard avroluq plan çərçivəsində hərbi sərmayələrin əksəriyyətini ittifaq ölkələri öz büdcələri və müstəqil kreditlər hesabına tapmalı olacaqlar.









**"Ağ kitab"da nələr yazılacaq?**

Avropanın təhlükəsizlik böhranı ilə üzləşdiyini deyən Ursula Fon der Lyayen bunun həm də yeni imkanlar açdığını və ittifaqın tarixən böhranlar üzərində qurulduğunu vurğulayıb. Avropa Komissiyasının rəhbəri ümum-Avropa müdafiəsinin vaxtının gəldiyini və Avropa İttifaqının martın 6-da keçirilmiş sammitində hərbi həllər üzərində konsensus əldə olunduğunu qeyd edib.

Avropa İttifaqı Şurasının sədri Antonio Koşta isə Avropa Parlamentindəki çıxışında həmin "çətin qərarların" müdafiə məsələləri üzrə "Ağ kitab"da təqdim olunacağını bildirib. Avropa Komissiyası tərəfindən hazırlanan "Ağ kitab" soyuq müharibədən sonra Avropanın hərbiləşdirilməsi üçün hərtərəfli strategiyaya çevrilməlidir. Koşta hesab edir ki, Aİ-nin hərbiləşdirilməsi Avropa iqtisadiyyatına, sənayenin inkişafına və məşğulluğun artmasına böyük töhfə verəcək.

**Müttəfiqlik təhlükə altındadır**

Nə Ursula Fon der Lyayen, nə də Antonio Koşta Avropanın təhlükəsizlik sistemində sarsıntının nədən ibarət olduğunu açıqlayıb. Avropa Parlamentindəki liberal qrupun rəhbəri Valeri Aye isə sessiyada müzakirələr zamanı Ağ evin artıq müttəfiq olmadığını deyib. Onun sözlərinə görə, dünya artıq dəyişib və Avropa İttifaqı özünü müdafiə etməyə hazır olmalıdır: "Aİ şərqdə Rusiyanın, qərbdə isə ABŞ Prezidenti Donald Trampın qarşısını almalı və daxildə mühafizəkar qüvvələrlə mübarizə aparmalıdır".

Ümumiyyətlə, son illər "qoca qitə"də siyasi böhran da artmaqdadır. Lakin Qərbdə, Avropada təkcə siyasi dəyərlər aşınmaya məruz qalmır, eyni zamanda, ideoloji, mənəvi və dini ayrı-seçkilik artır, sivilizasiyaların toqquşması tezisi təbliğ edilir. Arzuolunandır ki, Avropada belə qarşıdurma ssenarilərinə son qoyulsun, islamofobiya, irqçilik, diskriminasiya əvəzinə tolerantlıq, multikulturalizm seçilsin, bəşəri dəyərlər təbliğ və təşviq edilsin. Lakin proseslər göstərir ki, Avropada mövcud olan bu zərərli tendensiyaya son qoyulması hazırkı dönəmdə real görünmür. Çünki bütün bunların fonunda miqrant problemləri artır, demokratiya və insan haqları məsələlərində ziddiyyətlər güclənir.

Bu neqativ hallar bir sıra təşkilatların hesabatlarında da əksini tapır. Perspektiv üçün proqnozlar isə nikbin deyil. Belə ki, Avropa İttifaqının Əsas Hüquqlar Agentliyinin (FRA) son hesabatında bildirilir ki, yoxsulluq səviyyəsinin artması, demokratiyaya hücumlar, irqçilik və ksenofobiya, eləcə də miqrasiya problemləri 2024-cü ildə Avropa İttifaqında fundamental hüquqlar üçün əsas təhdidlər olub. Təşkilatın hesabatına əsasən, yaşayış xərclərinin, xüsusən də enerji qiymətlərinin artması ona gətirib çıxarıb ki, insanların 20 faizi (hər beş nəfərdən biri) səfalət içindədir.

**Avropa demokratiyasına ciddi zərbə vurulub**

Agentlik, miqrasiya təzyiqini nəzərə alaraq, dənizdə axtarış-xilasetmə əməliyyatlarını gücləndirməyi və miqrantlarla ünsiyyət üçün daha təhlükəsiz şərait təmin etməyi tövsiyə edir. FRA eləcə də dövlətin dinc yığıncaqlar və fikirləri ifadə etmək azadlığı hüququna münasibətdə həddən artıq müdaxiləsini pisləyir və qeyd edir ki, bu, mülki məkana təhdiddir, belə vəziyyət ictimai işlərdə əhəmiyyətli iştirakın mövcud olmaması deməkdir və dezinformasiya ilə birləşdikdə bütün Avropa ölkələrində demokratiyaya xələl gətirir. "İyirmi yeddi üzv dövlət, həmçinin vətəndaş cəmiyyətinin müdafiəsini gücləndirməli, antisemitizm və islamofobiyanın artması barədə xəbərdarlıq edərək, həyəcanlı tendensiya kimi təsnif etdikləri irqçilik və dözümsüzlüyün bütün formaları ilə mübarizə aparmalıdır",-deyə hesabatda vurğulanır. Avropada sağlam düşüncəli liderlər mövcud problemlərin səbəblərini göstərməklə yanaşı, vəziyyətdən çıxış yolunun tapılmasını vacib hesab edirlər.

Göründüyü kimi, Avropa İttifaqı məkanında bütün sferaları əhatə edən problemlər artmaqdadır. Aİ dünyanın müxtəlif regionlarında proseslərə müdaxilə etməkdənsə, özünün daxili məsələlərinə daha çox diqqət ayırmalıdır. Avropa təsisatı isə bu problemləri yaxın zamanlarda həll etməyə hazır görünmür. Üstəlik, Aİ təhlükəsizlik amili ciddi təhdidə çevrilməkdədir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Ramazan ayı: 14-cü günün duası

**"Allahummə la tuaxizni fihi bil-əsərat. Və əqilni fihi minəl-xətaya vəl-həfəvat. Və la təc-əlni fihi ğərəzən lil-bəlaya vəl-afat. Bi-izzətikə ya izzəl-muslimin"**
***Tərcüməsi:***
**"İlahi, bu gün səhvlərimə görə mənə qəzəblənmə! Bu gün xətalarıma göz yum! Məni bəla və afətlərə hədəf etmə! İzzətinə and verirəm, ey müsəlmanlara izzət verən Allah!"**

# Ramazan ayı və Novruz bayramı ərəfəsində

## Düzgün qidalanma...

## Nələrə diqqət etməliyik?



*Yeganə BAYRAMOVA*

Oruc tutmağın insan sağlamlığına faydaları çoxdur. Bununla belə, Ramazanda düzgün qidalanma qaydalarına xüsusi diqqət yetirmək lazımdır. Qida rasionu elə tərtib edilməlidir ki, imsakdan iftara qədər aclıq və susuzluq hissi narahatlıq yaratmasın. Mütəxəssislərin məsləhətinə görə, xüsusilə, imsakda tərkibində maye olan yeməklərin qəbulu mümkün qədər artırılmalıdır.

Məlumdur ki, bu il Novruz bayramı Ramazan ayına təsadüf edir. Martın 30-da isə Ramazan bayramı qeyd olunacaq. Artıq Novruz çərşənbələrindən üçünü geridə qoymuşuq. Martın 18-də İlaxır çərşənbə, martın 20-21-də isə Novruz bayramıdır. Bu ərəfələrdə oruc tutan şəxslərin qida rasionuna düzgün əməl etməsi vacibdir. Çünki mədənin uzun müddət boş olması və iftarda birdən-birə yüklənməsi düzgün deyil. Bununla bağlı dietoloqlar, qida mütəxəssisləri də tövsiyələrini bildirirlər.

**Su qəbulu vacibdir...**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən qida üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib ki, oruc tutan insanlar ac qaldıqları müddətdə itirilən enerjini bərpa etmək üçün mütləq şəkildə orqanizmə lazım olan zəruri vitamin, mineral tələbatı ödəməlidir. Onun sözlərinə görə, çox vaxt bəzi insanlar düzgün qidalanma sistemini bilmədiklərinə görə sağlamlıqlarına zərər vurmuş olurlar: "Bəzi insanlar orucu kilo vermək məqsədilə tuturlar. Nəticədə orqanizmində bir çox dəyişikliklər olur. Həmin insanlar daha çox baş ağrısından şikayət edirlər ki, bu da orqanizmdə yetəri qədər maye qəbulunun olmaması ilə əlaqəlidir. Çünki oruc tutan şəxs nəzərə almalıdır ki, hər kiloya görə 30 mq su içməlidir. İftar və imsak vaxtı arasında bu miqdarı bölüb mütləq şəkildə o suyu qəbul etmək lazımdır. Əks halda orucluqdan sonra bədəndə toksinlərin yığılması ilə xoşagəlməz proseslər baş verəcək. Mütləq şəkildə su qəbulunu unutmamalıdırlar. Həm qidaların tərkibindəki elementlər su vasitəsilə həll olunur, həm də orqanizmdə yığılan toksik maddələr suyun hesabına yox olur. Ramazan ayında bildiyimiz kimi fəsillərə görə bəzən 16 bəzən də 18 saat ac qalırıq. Buna görə də qəbul edilən qidalar balanslaşdırılmış vəziyyətdə olmalıdır".



**Bu qidaları iftarda yeməyin**

Mütəxəssis onu da qeyd edib ki, orqanizm gün ərzində 40-dan 70-ə kimi makro və mikro mövsümi meyvə-tərəvəzlərdən mütləq istifadə etməlidirlər: "Bunun üçün də qəbul edəcəyimiz qidaların çeşidliliyini təmin etməliyik. Daha çox keyfiyyətli və ev üsulunda hazırlanmış qidalardan istifadə etsinlər. Səhər yeməyində daha süd məhsullarından istifadə etmək çox yaxşı olar. Həmçinin burada yumurtanın rolu da çox böyükdür. Bundan əlavə səhər yeməyində əncir qurusu və zeytunun da insan orqanizminə çox böyük faydaları var. Səhər yeməyində çərəzlər və gavalı qurusunu miqdarında istifadə etmək faydalı olar. Əsas məqamlardan biri də iftar vaxtında qidalanmaq qaydasıdır. İlk olaraq su içmək orqanizmə faydalıdır. 15 dəqiqə sonra qidaların qəbuluna keçmək olar. İftar vaxtı qızardılmış yağlı un məmulatlarından istifadə etmək insan sağlamlığına zərər vurur".

**Qida rasionuna bayramdan sonra da diqqət edilməlidir**

M. Hüseynova həmçinin bəzi qidaların insan orqanizminə zərərlərindən də danışıb. "İftar zamanı rəngli içkilərdən və "fast food"lardan istifadə etmək olmaz. Oruc zamanı orqanizm bioloji olaraq təmizlənir. Nəticədə uzun müddət qaraciyərdə toplanan qan və yağ əriməyə başlayır. Dərhal bunun əvəzinə hər hansı zərərli qidalar yığılarsa, bu zaman daxili orqanlarda ciddi problem yarada bilər. İftar süfrəsində şorbanın vacib olub olmaması ən çox verilən suallardan biridir. Təbii ki, bu tərəvəzlərdən hazırlanan şorba olarsa, faydalı olar. İftardan sonra 30 dəqiqə açıq havada gəzmək fiziki aktivliyi artırmaq üçün effektivdir. Bildiyimiz kimi, qarşıdan Novruz bayramı gəlir. 1 ay müddətinə oruc tutan şəxslərin istər bayram ərəfəsində, istərsə də sonrakı zamanlarda qidalanmalarına diqqət yetirməsi vacibdir. Həddindən artıq ağır şirniyyatların, həmçinin yeməklərin qəbul edilməsi orqanizmin yüklənməsinə səbəb olur. Ona görə də çalışmaq lazımdır ki, mədə həddindən artıq yüklənməsin və nisbətən yüngül qidalara üstünlük verilsin".

# "Günlərin bir günü"...

Bu günlərdə gənc yazar Selcan Muradzadənin "Günlərin bir günü" adlı kitabı çapdan çıxıb. Kitabda uşaq dünyasını əks etdirən maraqlı bədii nümunələr əks olunub. Balacaların xoş vaxt keçirmələri üçün qələmə alınmış nəşrdə müəllif müxtəlif mövzulara toxunub. Bir-birindən maraqlı çoxsaylı hekayələr sadə və aydın dildə yazılıb.

"Günlərin bir günü" kitabının müəllifinin gənc olmasına baxmayaraq, kitabdakı hekayələr düşündürücü və dərin mühakimə yürütmək baxımından maraqlıdır. Hekayələri oxuduqca axıcılıq və sadə üslüb xətti oxucuda kitaba diqqətini artırır. Müxtəlif mövzuları əhatə edən çoxsaylı hekayələrin azyaşlıların təfəkküründə dərin iz buraxacağı, onların bədii-estetik zövqünün formalaşmasında müstəsna əhəmiyyət kəsb edəcəyi qənaətini formalaşdırır.

Bir məqamı da xüsusilə vurğulamaq yerinə düşərdi - kitabın nəşri xüsusi yazı qabiliyyətinə malik digər gənclərin də ilhamlanması üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, 15 yaşlı müəllifin qələmindən çıxmış bir-birindən maraqlı hekayələr digər gənc yazarlar üçün də bir növ stimul rolunu oynayır.




Xatırladaq ki, müəllif Selcan Muradzadə tanınmış yazıçı-dramaturq, publisist və satirik, ictimai xadimi Xeyrəddin Qocanın nəvəsidir.

# "Azercell" məhkum qadınlar üçün "Kitab klubu" təşkil edib

"Azercell"in cəmiyyətdə mütaliə mədəniyyətinin təşviqi məqsədilə həyata keçirdiyi "Kitab klubu" layihəsi çərçivəsində növbəti görüş baş tutub. Beynəlxalq Qadınlar Günü ərəfəsində təşkil olunan tədbir 4 saylı cəzaçəkmə müəssisəsi və Qadın Qaynar Xətti ilə birgə əməkdaşlıq çərçivəsində keçirilib. Görüşdə mütaliə və ədəbiyyatın cəmiyyətin mənəvi və mədəni inkişafına, həmçinin sosial inteqrasiyaya təsiri müzakirə olunub.

Tədbirin qonağı tanınmış aktyor, rejissor, ssenari müəllifi Əlixan Rəcəbov Azərbaycan ədəbiyyatında qadın obrazlarının inkişafı barədə danışıb. Əlixan klassik və müasir ədəbiyyatda qadınların rolu, eləcə də kitabların ekranlaşdırılmasının ədəbiyyatın geniş auditoriyaya çatdırılmasında oynadığı mühüm rol barədə fikirlərini bölüşüb.

Görüş zamanı iştirakçılar seçdikləri şeir və ədəbi nümunələri səsləndirib, ədəbiyyat barədə düşüncələrini bölüşüblər.

# Təbiətin füsunkar nümunəsi!




## 14 mart Beynəlxalq Çaylar Günüdür

*Yeganə BAYRAMOVA*

Təbiəti möhtəşəm və ecazkar edən bir sıra nemətlər var. Bu sırada uca dağları, meşələri, şəlalələri, mavi gözlü gölləri və çayları qeyd edə bilərik. Məlumdur ki, çaylar hər bir ölkənin ekologiyasında eyni statusa malikdir. Təbiətə möhtəşəm görüntü verən çaylar, eyni zamanda, insanların ruhunun yenilənməsinə, estetik zövqünə mühüm təsir göstərir.

Çaylar haqqında geniş və maraqlı məqamları qeyd etmək olar. Dünyada qeyri-adi görünüşləri ilə seçilən çaylar var. Hansı ki, bu çaylar özünəməxsus görüntüsü ilə diqqətləri cəlb edir, eyni zamanda, həmin ölkələrdə olan turistlərin marağına səbəb olur.

**Hər il göyqurşağı rənglərinə boyanır...**

Kolumbiyada yerləşən Kanyo Kristales çayı hər il göy qurşağı rənglərinə boyanır. Çay bəzən çəhrayı, yaşıl, sarı və mavi rənglərdə axır. Kanyo Kristales xalq tərəfindən "5 rəngli çay", "Cənnətə doğru irəliləyən çay", "Axan göyqurşağı" kimi də tanınır.

Çayın davamlı dəyişən rəngləri Kolumbiyanın xüsusi sehiri kimi açıqlansa da, əslində, iyun və noyabr ayları arasında reallaşan təbiətin bir möcüzəsidir. Yaz və yay aylarında qısa müddətə də olsa, rəngarəng açan "Alg" adlı bitki çayı göyqurşağına bürüyür. İl ərzində yosunabənzər bu bitkinin tünd yaşıl rəngdə göründüyü deyilir. Ancaq yağış mövsümü gəldiyində və su səviyyəsi artdığı zaman bitki çay üzərini örtən bənövşəyi, çəhrayı, sarı və yaşıl rənglər halında yayılır.

Quraq mövsümlərdə isə sular çəkildiyindən algların mövcudluğu azalır. Kolumbiyanın yağışlı mövsümündə çayın suları sürətlə axarkən alglar rəng dəyişdirmir. Yalnız sentyabr aylarında 2 və 3 həftə əlverişli şərtlərdə alglar rəngarəng bir görüntüyə sahib olur. Beləliklə, ortaya göyqurşağı kimi bir mənzərə ortaya çıxır.

**Yay aylarında donan çay**

Çinin Yunnan əyalətindəki Mavi Ay çayı turistlərin ən çox ziyarət etdiyi yerlərdən biridir. Mineral sularla zəngin olan çayı yağış yağanda ağ palçıqlar və digər maddələr ağ rəngə boyayır. Buna görə də onu yerli əhali (Naxilər) Ağ su çayı adlandırır.



Çay dağdan axan qar və buzların əriməsi ilə qidalanır. Çayın maraqlı tərəfi isə yay aylarından donmasıdır.

**Ən çirkli çay...**

Yeri gəlmişkən, Konqo ən dərin çay hesab olunur. Bundan başqa, dünyanın ən qısa çayı Rou adlanır. ABŞ-ın Montana ştatında yerləşən bu çayın qollarından birinin uzunluğu cəmi 17,7 metrdir. İndoneziyada olan Sitarium isə ən çirkli çaydır.

Yarlunq Sanqpo - ən yüksəklikdə yerləşən çaydır. Dəniz səviyyəsindən təxminən 3000 metr yüksəklikdədir. Rio-de-la-Plata isə ən enli çay hesab olunur. Uruqvay və Parana çaylarının qovuşması nəticəsində yaranan bu çayın eni 225 metrdir.

**Hansı uzundur, Nil yoxsa Amazon?**

Dünyada çoxlu çaylar var. Lakin onlar arasında hansının daha uzun olması maraqlıdır. Çayların uzunluğu isə müəyyən meyarlarla təyin olunur. Dünyanın ən uzun çayı hesab edilən Nil Afrikanın 10 ölkəsinin ərazisindən keçir və uzunluğu 6650 kilometrdir. Nilin iki əsas qolu var: Ağ və Mavi Nil.

And dağlarından başlayaraq Atlantik okeanına tökülən Amazon çayı isə ikinci ən uzun çaydır. Lakin bu məsələdə müəyyən fikir ayrılıqları var. Bəzi tədqiqatçıların fikrincə, Amazon çayı Nildən daha uzundur. Onun uzunluğu 6259-6800 kilometr arasında dəyişir.

Qeyd edək ki, bu gün Beynəlxalq Çaylar Günüdür. Bu ekoloji təqvim 1998-ci ildə təsis edilib. Beynəlxalq Çaylar Günü su hövzələri, onların problemləri barədə cəmiyyəti maarifləndirmək məqsədi daşıyır. Hər il bu günlə əlaqədar müxtəlif tədbirlər və aksiyalar keçirilir.

# "Bakcell" "Müasir Marketinqin Əsasları Azərbaycan Nəşri"nə qoşulub




İnnovasiya və sürət lideri "Bakcell", dünyaşöhrətli marketinq nəzəriyyəçisi Filip Kotlerin 100 ölkəni əhatə edən Müasir Marketinqin Əsasları (Essentials of Modern Marketing) qlobal təşəbbüsünə qatılıb. Qısa zamanda dünya və Azərbaycan oxucularına təqdim olunacaq kitabda ölkənin aparıcı şirkətlərinin uğur hekayələri yer alacaq.

"Kotler Impact" tərəfindən idarə olunan qlobal layihədə təqdim olunan kitab silsiləsi hər bir ölkəyə özəl yanaşma ilə hazırlanaraq yerli bizneslərin uğurlarını qlobal marketinq prinsipləri ilə birləşdirir. Layihə çərçivəsində artıq 25-dən çox ölkənin, o cümlədən Avropa ölkələri, Braziliya, Hindistan, Pakistan, Türkiyə və s. bazarları haqqında nəşr edilən kitablar oxucuların böyük marağına səbəb olub. Azərbaycan nəşri ölkəmizin biznes mühitini beynəlxalq səviyyədə tanıtmağa, o cümlədən yerli marketinq mütəxəssislərinə qlobal təcrübədən yararlanmaq imkanı verəcək.

"Bakcell" bu layihəyə dəstək verməklə Azərbaycanın və regionun innovativ marketinq yanaşmalarının inkişafına töhfə verməyi hədəfləyir.

**Filip Kotler haqqında**

Müasir marketinqin atası və 80-dən çox kitabın müəllifi olan Filip Kotler marketinq sahəsində inqilabi nəzəriyyələr yaradaraq, dünya miqyasında biznesin inkişafına təsir göstərib. O, marketinqi psixologiya və iqtisadiyyatla birləşdirərək, müasir marketinqin elmi əsaslarını formalaşdırıb.

Ən məşhur əsərlərindən biri olan "Marketing Management" kitabı dünya universitetlərində marketinq dərsliklərinin əsas qaynağı kimi istifadə olunur. Onun nəzəriyyələri şirkətlərin müştəriyönümlü strategiyalar qurmasına və qlobal bazarlarda rəqabət üstünlüyü əldə etməsinə imkan yaradır.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək innovativ, keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4891
Sifariş: 559
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova